# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Rumıniya mediası: "Azərbaycan Cənubi Qafqazda, sadəcə, iştirakçı deyil, həm də oyunun qaydalarını dəyişən ölkədir"**


4

SƏS
№ 123 (7291)
16 iyul 2025-ci il.
Qiymәti 60 qәpik

# Terrorsuz Türkiyə!


2

**Prezident İlham Əliyev: "Bu gün Azərbaycan və Türkiyə gələcəyə doğru çiyin-çiyinə, inamla və uğurla irəliləyir"**

# Yaşıl enerji potensialımız və mövcud istehsal həcmi qaneedicidirmi?


7

**Mediamızın 17 illik yol yoldaşı - Səs İnformasiya Agentliyi**


4

**Milli mətbuat 150: Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!**



5

**Niyə ən çox onları GMO-laşdırırlar?**


15

**"Təhsilin keyfiyyəti təkcə sinif otağında deyil,..."**


9

**Bu gündən leysan yağacaq, dolu düşəcək - XƏBƏRDARLIQ**


16

# Terrorsuz Türkiyə!

## Prezident İlham Əliyev: "Bu gün Azərbaycan və Türkiyə gələcəyə doğru çiyin-çiyinə, inamla və uğurla irəliləyir"

Türkiyə Konstitusiyasına zidd olaraq ölkədə hakimiyyəti güc yolu ilə dəyişdirmək, demokratiyanın təməl prinsiplərini tapdalayaraq dövləti zorla ələ keçirmək cəhdlərindən artıq 9 il ötür. Yaşanan hadisələr bölgədə önəmli mövqeyə sahib olan Türkiyəyə, Atatürk ideyalarına, Konstitusiyaya və demokratiyanın fundamental dəyərlərinə zərər vurmaq istəyi idi. ”Doqquz il əvvəl - 15 iyul tarixində Türkiyədə dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda şəhid olmuş bütün qardaş-bacılarımızın əziz xatirəsini dərin hörmət və ehtiramla yad edir, ailələrinə və bütün xalqınıza dərin hüznlə başsağlığı verirəm. Həmin gecə qardaş Türkiyə müasir tarixinin ən böyük qəhrəmanlıq salnaməsini yazdı. Mətin və mübariz xalqınız Türkiyə Respublikasının konstitusional və demokratik əsaslarını hədəfə alan qanlı çevriliş cəhdinə qarşı sinəsini sipər edərək Vətəninə, bayrağına və dövlətinə sahib çıxdı. Bu gün qürurla deyə bilərik ki, 15 İyul - ”Demokratiya və Milli Birlik Günü” güclü və sarsılmaz iradənin, milli birliyin, həmrəyliyin və vətənpərvərliyin zəfərini qeyd edən əlamətdar tarixdir”. Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyədə baş vermiş 15 İyul hadisələrinin ildönümü ilə əlaqədar Prezident Rəcəb Tayyib Ərdoğana ünvanladığı məktubda bildirilib.

Türkiyə tarixin daha bir ağır sınağından üzüağ çıxıb. Tarix növbəti dəfə böyük türk xalqının öz dövlətinə və Vətəninə nə qədər sadiq olduğunun şahidinə çevrildi. ”Xain çevriliş cəhdinin ilk anlarından etibarən Azərbaycan xalqı və dövləti qardaş Türkiyənin yanında olaraq öz dəstəyini və həmrəyliyini nümayiş etdirmişdi. Bu da növbəti dəfə ”Bir millət iki dövlət” prinsipinin əyani təzahürü, qardaşlığımızın bariz nümunəsi idi. Türkiyə dövlətinə qarşı yönəlmiş bu məkrli planın önlənməsi Sizin liderliyiniz, böyük fədakarlığınız və xalqınızın Sizin ətrafınızda sıx birləşməsi sayəsində mümkün olmuşdur. Qardaş ölkəniz bu ağır sınaqdan da üzüağ, alnıaçıq və daha da güclənmiş çıxaraq bütün dünyaya öz qüdrətini bir daha sübut etdi”, - deyə Prezident İlham Əliyev bildirib.

Sarsılmaz dostluq və qardaşlığa söykənən və uğurla davam etdirilən Türkiyə-Azərbaycan birliyi əsrlərdir ki, davam edir. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənib. Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələrinin hərtərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır və dövlətlər arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün nümunəyə çevrilib. Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Ulu Öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra dövlətlərarası əlaqələrin artmasına, əməkdaşlığın genişlənməsinə xüsusi diqqət yetirilmişdir. ”Bir millət, iki dövlət”, - deyən Ulu Öndər Heydər Əliyevin dövlətlərarası yaratdığı qardaşlıq münasibətləri bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən çox yüksək səviyyədə davam etdirilir.



### ”ŞUŞA BƏYANNAMƏSİNDƏN QAYNAQLANAN STRATEJİ MÜTTƏFİQLİYİMİZ BİRGƏ SƏYLƏRİMİZLƏ BUNDAN SONRA DA DAHA DA MÖHKƏMLƏNƏCƏK VƏ DƏRİNLƏŞƏCƏKDİR”

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ”Bir millət, iki dövlət” və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün ”Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir” kəlamları son zamanların hadisələrində, ən çətin məqamlarda özünü bir daha doğrultmuş oldu. Azərbaycanın 44 günlük Vətən müharibəsinin od püskürən günlərində Türkiyə dost ölkə olaraq, Azərbaycanla həmrəylik nümayiş etdirdi. Dərdimizə, kədərimizə şərik oldu. Müharibənin ilk günündən sonuna qədər ”Can Azərbaycan” deyib, yanımızdan bir an belə kənarlaşmadı. Mənəvi dəstəyi, gücü ilə dünyaya səs saldı və istənilən vəziyyətdə qardaş dediyi ölkənin - Azərbaycanın yanında oldu. Qələbə sevincimizi birgə yaşadıq və bu gün Azərbaycanın işğaldan azad olunan ərazilərində Azərbaycan və Türkiyə bayraqları qoşa dalğalanır. Azərbaycan da Türkiyəyə qarşı olan sevgisi ilə onun yanındadır. ”Bu gün Azərbaycan və Türkiyə gələcəyə doğru çiyin-çiyinə, inamla və uğurla irəliləyir. Ölkələrimizin sarsılmaz qardaşlığı, dünyada bənzəri olmayan birliyi və strateji müttəfiqliyi həm regionumuz, həm də bütün dünya üçün mühüm təhlükəsizlik, tərəfdaşlıq və inkişaf amilidir. Əminəm ki, tarixən bir-birinə dayaq olmuş qardaş xalqlarımızın iradəsindən, eləcə də Şuşa Bəyannaməsindən qaynaqlanan strateji müttəfiqliyimiz birgə səylərimizlə bundan sonra da daha da möhkəmlənəcək və dərinləşəcəkdir”, - deyə Prezident məktubunda bildirib. Türkiyədə baş verən hadisələr xalqın seçdiyi hökumətə qarşı edilən çevriliş cəhdi idi. Xalq birlik və bərabərlik nümayiş etdirərək buna qarşı çıxdı. Ölkənin prezidenti və hökumət öz vəzifələrini uğurla və yerindəcə icra etmişdir.

### MİLLİ BİRLİYƏ APARAN SİYASİ XƏTT

Yaşadığımız tarixdən məlumdur ki, müstəqillik qazandıqdan sonra Azərbaycan xalqı çox əzab-əziyyətlə qarşılaşmış, torpaqlarının işğalçılardan azad edilməsi, ərazi bütövlüyünün təmin olunması uğrunda mübarizədə çoxlu qurbanlar vermişdir. Məhrumiyyətlərə düçar olan xalqımız çətinliklə qazandığı müstəqilliyin müdafiəsində mətanətlə dayanmış, mücadilə etmişdir.

Etiraf edək ki, müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan səriştəsiz, bacarıqsız qüvvələrə haqlı olaraq narazılıqlar var idi. Dövlətçiliyinin itirilməsi təhlükəsi qarşısında qalmış Azərbaycan xalqı zəngin dövlət rəhbərliyi təcrübəsinə və siyasi nüfuza malik olan Ulu Öndər Heydər Əliyevi özünə rəhbər tələb etdi. Ulu Öndərin hakimiyyətə qayıdışı ilə respublikada yaranmış son dərəcə gərgin vəziyyətin sabitləşdirilməsi üçün sağlam qüvvələrin köməyi ilə qardaş qırğınının, Azərbaycan dövlətinin parçalanmasının qarşısını alındı. Ulu Öndər tərəfindən ölkəmizdə milli birliyə aparan siyasət xətti həyata keçirilməyə başlanıldı. Qısa bir zamanda cəmiyyət həyatının bütün sahələrində yeni münasibətlərə yol açmaq, islahatların əsaslarını yaratmaq üçün tədbirlər görülür və davam etdirilirdi. 1994-cü il sentyabrın 20-də ”Əsrin müqaviləsi”nin imzalanması Azərbaycan həyatında yeni başlanğıcın əsasını qoydu. Bu saziş Azərbaycan cəmiyyətinin inkişafına, iqtisadiyyatın dirçəlməsinə, beynəlxalq mövqemizin möhkəmlənməsinə, xalqın vəziyyətinin yaxşılaşmasına töhfə verdi. Görülən işlərdən xoflanan cinayətkar ünsürlər, Azərbaycan Respublikasının müstəqilliyini öz çirkin məqsədlərinə qurban verməyə hazır olan, Azərbaycanı başqa dövlətlərin himayəsində görmək istəyən qüvvələr dərhal təşviş düşdülər və məkrli planlar həyata keçirməyə başladılar. Bunlardan biri də 1995-ci ilin mart hadisələri idi. 1995-ci il mart ayında müstəqilliyimizə qəsd etmək istəyənlərin məkrli niyyətləri bu gün də insanların yaddaşından silinməyib. Bir qrup xəyanətkar insan ətrafına topladığı qeyri-qanuni silahlı birləşmələr vasitəsilə müstəqilliyimizə qəsd etməyə cəhd göstərmişdi. Ölkədə yaradılmış cidi nizam-intizama tabe olmaq istəməyən dağıdıcı qüvvələr Azərbaycanın beynəlxalq aləmdə getdikcə artan nüfuzundan təşvişə düşərək, xarici himayədarlarının təhriki ilə dövlət çevrilişinə cəhd etmişdilər.

### HAKİMİYYƏT BÖHRANINA, ANARXİYA VƏ ÖZBAŞINALIĞA SON

Xatırlatmaq yerinə düşər ki, buna qədər 1994-cü il oktyabrın 2-də ölkəmizdə dövlət çevrilişinə silahlı cəhd göstərildi. Ümummilli Liderin vəziyyəti sabitləşdirmək üçün görüyü tədbirlər, xalqın əzmi çevriliş etməyə çalışan qüvvələri taqətdən saldı. Böyük siyasi xadim bu hadisələrdə də ilk növbədə xalqın köməyinə arxalandı. Oktyabrın 4-də axşamdan xeyli keçmiş Ulu Öndər xalqa müraciət etdi. Bu müraciətə cavab olaraq yüz minlərlə insan gecəyarısı Prezident Aparatının qarşısına toplaşdı. Oktyabrın 4-dən 5-nə keçən gecə Prezident Aparatının qarşısında başlanan və on minlərlə insanın iştirak etdiyi möhtəşəm mitinq səhərədək davam etdi. Oktyabrın 5-də gündüz Azadlıq meydanında bir milyona yaxın insanın iştirak etdiyi ümumrespublika mitinqi keçirildi. Bütünlükdə 4 və 5 oktyabr mitinqləri xalq-iqtidar birliyinin parlaq təcəssümü idi. Həmin birlik qarşısında heç bir pozucu qüvvə tab gətirə bilməzdi. Yerlərdəki sağlam qüvvələr bu birliyə arxalanaraq müstəqilliyimizə və dövlətçiliyimizə qarşı çıxanları yerində oturtdular. Cəmiyyətdə dövlət çevrilişinə cəhd göstərənlərə qarşı şiddətli nifrət yaranmışdı.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev ölkədə davam edən hakimiyyət böhranına, anarxiya və özbaşınalığa son qoydu. Həmin hadisələr, bir daha göstərdi ki, Azərbaycan xalqı ölkə daxilində qarşıdurma yaratmaq istəyənləri dəstəkləmir və onları müdafiə etmir.

Ulu Öndər Heydər Əliyev tərəfindən xalqın birliyinin təmin olunması, ictimai-siyasi sabitlik və iqtisadi dirçəliş ölkəmizin inkişafında öz sözünü demiş oldu, Ulu Öndər Heydər Əliyevin dövlət idarəçiliyindəki zəngin təcrübəsi, xalqına, Vətəninə, millətinə olan sonsuz məhəbbəti, qətiyyəti və uzaqgörənliyi sayəsində Azərbaycanda ictimai-siyasi sabitlik qorunub-saxlanıldı. Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin müdrik və uzaqgörən siyasəti müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır, dövlətimiz durmadan yüksəlir, inkişaf edir və yeni uğurlar qazanır.

### GƏLƏCƏK NƏSİLLƏRƏ TƏHLÜKƏSİZ, DİNC VƏ FİRAVAN ÖLKƏ MİRAS QOYMAQ UĞRUNDA QƏTİYYƏT VƏ ƏZMKARLIQ

Azərbaycan kimi Türkiyə də belə cəhdləri yaşamış oldu. Xalq-iqtidar birliyi çətin məqamlarda öz sözünü dedi. Türkiyədə baş verənlər ölkənin demokratik əsaslarına və hüququn aliliyinə qəsd kimi dəyərləndirib. Azərbaycan Türkiyədə çevriliş cəhdinin qarşısının alınması, vəziyyətin sabitləşdirilməsi istiqamətində həyata keçirilən tədbirləri alqışladı. ”Siz hazırda da ”Terrorsuz Türkiyə” hədəfinin reallaşması, gələcək nəsillərə təhlükəsiz, dinc və firavan ölkə miras qoymaq uğrunda qətiyyətlə və əzmlə çalışırsınız. Bu yaxınlarda PKK terror qruplaşmasının özünü ləğv etmək və silahı yerə qoymaq qərarı Sizin güclü siyasi iradənizin parlaq nəticəsi, milli birlik və həmrəyliyin təntənəsi oldu”, - deyə Prezident İlham Əliyev bildirib. Türkiyə cəmiyyəti son dərəcə demokratdır, bu ölkənin vətəndaşları yüksək siyasi mədəniyyətə sahibdirlər. Əlbəttə ki, belə də olmalıdır. Bu gün Türkiyə dünyanın ən qüdrətli dövlətlərindən birinə çevrilib. Türkiyə Cümhuriyyəti ötən müddət ərzində daha da güclənərək beynəlxalq aləmdə sabitliyin və təhlükəsizliyin simvoluna çevrilib. Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə inkişaf yolunda daha yüksək zirvələr fəth edəcəkdir.

Bildiyimiz kimi, iyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək, PKK terror qruplaşmasının özünü ləğv etməsi və silahı yerə qoyması ilə bağlı qardaş Türkiyə xalqını ürəkdən təbrik edib. Dövlətimizin başçısı bu mühüm hadisənin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə ölkədə həyata keçirilən qətiyyətli siyasətin, güclü liderliyin, sarsılmaz iradənin, milli birliyin və həmrəyliyin parlaq təntənəsi olduğunu vurğulayıb. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, ”Dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə yaxın ikinci ölkə tapmaq mümkün deyil. Hər zaman bir-birimizin yanındayıq. Bundan sonra da belə olacaq”.

***Zümrüd BAYRAMOVA***



# Tarixin fenomen Lideri

**Ulu Öndər Heydər Əliyev: "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və bütün gücümlə çalışacam ki, dövlətim müstəqil, əbədi olsun"**

Azərbaycan müasir dövrün ən inkişaf edən azad, demokratik dövlətlərdən biridir. Aparılan düzgün, əsaslı, müdrik siyasət ölkəmizə yeni-yeni uğurlar, qələbələr gətirir. Təbii ki, qazanılan nailiyyətin əsasını Ulu Öndərimiz Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra qoyulub. Məhz Dahi Öndərimiz Heydər Əliyev xalqın çağırışı ilə 1993-cü il iyunun 9-da Bakıya gəldi və 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi və iyunun 24-dən isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Ulu Öndərimiz Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib. Ulu Öndər 1993-cü il oktyabrın 10-da dövlətə və xalqa sədaqət andı içərək Azərbaycanı böyük bəlalardan, faciələrdən hifz edib, ölkəni sabitlik, iqtisadi inkişaf və tərəqqi yoluna çıxarıb, qlobal enerji-kommunikasiya layihələrini reallaşdırmaqla Vətənə sədaqətlə xidmətin əyani nümunəsini yaratdı. Dahi Öndərimizin hakimiyyətə qayıdışından sonra ölkəmizdə vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, iqtisadi, hərbi, diplomatik nailiyyətlər əldə olundu. Nüfuzlu beynəlxalq təşkilatların üzvü olan Azərbaycan həm də dünyanın aparıcı dövlətləri ilə iqtisadi, siyasi, diplomatik əlaqələr qurdu. Ulu Öndər Heydər Əliyev Azərbaycanı vətəndaş müharibəsindən - qarşıdurmadan, tənəzzül və məhv olmaq təhlükəsindən xilas edərək dirçəliş yoluna çıxardı. Böyük dövlət xadimi, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri Azərbaycan dövlətçiliyinin xilası və bunun sayəsində ölkənin siyasi tarixində yeni bir mərhələnin açılmasıdır.

## Zəfərə gedən yolun başlanğıcı

1994-cü ilin sentyabr ayının 20-də Azərbaycanın Dövlət Neft Şirkəti ilə 6 ölkənin 10 şirkəti arasında"Əsrin müqaviləsi" imzalandı. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil olmuşdur. "Əsrin müqaviləsi" Azərbaycanın dünya iqtisadi sistemindəki yerini müəyyənləşdirmişdir. Həmin müqavilə daha sonra 19 ölkənin 41 neft şirkəti ilə 26 müqavilənin imzalanmasına yol açmışdır. Ulu Öndər Heydər Əliyev demişdi: "Əsrin müqaviləsi ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır".

Qazanılan sosial, iqtisadi, diplomatik nailiyyətlər Azərbaycanı dünya miqyasında tanıtdı, nüfuzunu artırdı. Bu baxımdan haqlı olaraq 15 iyun 1993-cü il tarixi Azərbaycan xalqının qızıl bir səhifəsi olaraq qeyd olunur. Ümummilli Lider Heydər Əliyev dəfələrlə qeyd edirdi ki, "mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və bütün gücümlə çalışacam ki, dövlətim müstəqil, əbədi olsun". 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın bu gününə və gələcəyinə inamı artırdı. Bu müqavilədən sonra xeyli sayda neft-qaz sazişlərinin imzalanması, hazırda ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcminin 120 milyard dollardan artıq olması da deyilənlərin təsdiqidir. Təbii ehtiyatların xalqa məxsusluğunu sözdə deyil, əməldə göstərilməsinin tərəfdarı olan Ümummilli Lider Heydər Əliyev 1999-cu ilin dekabrında Dövlət Neft Fondunu yaratmaqla əldə olunan gəlirin şəffaf və ədalətli bölünməsini təmin etdi. Bu gün Neft Fondunun aktivlərinin həcmi 50 milyard dollardan artıqdır. 1996-2003-cü illərdə ölkəmizdə bütün makroiqtisadi göstəricilər 2-3 dəfə artdı. Ölkədə 3000 yeni sənaye müəssisəsi yaradıldı. 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 20 milyard dollar investisiya qoyuldu. Həmin dövrdə ümumi daxili məhsul 22,3 dəfə artdı. Bütün sahələrdə islahatlar geniş miqyas aldı, ölkəmizin beynəlxalq nüfuzu durmadan artmağa başladı. Ulu Öndərin müdrik siyasəti sayəsində düşmənlərin aramsız təxribatlarına, pozuculuq əməllərinə baxmayaraq, Azərbaycandakı müxtəlif mədəniyyətlərin, fərqli dünyagörüşlərinin toqquşması baş vermədi, ölkəmizdə tolerantlıq başlıca meyar olaraq qaldı. Ulu Öndər Heydər Əliyev iqtisadi inkişafı təmin etməklə yanaşı digər sahələrdə mühüm addımlar atdı, qərarlar imzaladı. Ulu Öndər dünya azərbaycanlılarını müstəqil Azərbaycan Respublikası ətrafında sıx birləşməsinə nail olmaq üçün Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü təsis etdi və Xaricdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsinin yaradılması haqqında sərəncam imzaladı.

2001-ci ilin mayın 23-də imzalanan sərəncama əsasən həmin ilin noyabrın 9-10-da Bakıda dünya azərbaycanlılarının I qurultayı keçirilməsi diaspor hərəkatının inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycan dövlətinə və xalqına qələbələr bəxş etməkdədir. 2003-cü ildən Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanı Dahi Öndərimiz Heydər Əliyev yolu ilə apararaq regionun lider dövlətinə, dünyada söz və nüfuz sahibinə çevirib. Bu gün ölkəmiz sürətlə inkişaf edən iqtisadiyyatı, əlverişli geostrateji mövqeyi, zəngin mədəniyyəti və ənənəvi tolerantlığı ilə bütün planetin diqqət mərkəzindədir. Fəaliyyətində xalqına güvənən, arxalanan dövlət başçısı xalqa xidmətdən böyük şərəf duyur: "Mənim işim ondan ibarətdir ki, xalqa xidmət etməliyəm. Onu da edirəm və bundan sonra da edəcəyəm. Bütün işlərimdə mən xalqa arxalanıram. Əgər təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bütün bu işləri görmək mümkün olmazdı".

## Regionun tək lider dövləti

Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasətin ölkə Prezidenti İlham Əliyev tərəfindən zərgər dəqiqliyi ilə həyata keçirilir. Bu da Azərbaycana yeni -yeni uğurlar gətirir. Hazırda regionda reallaşdırılan bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə çıxışlarında vurğulayıb ki, əldə edilmiş uğurların dünyada bərabəri yoxdur, bu danılmaz aksiomadır: "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik".

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ümummilli Lider Heydər Əliyev irsini qətiyyətlə davam etdirərək, Qarabağ problemini birdəfəlik həll etdi, ata vəsiyyətini, xalqına vermiş olduğu vədini yerini yetirərək, tarix yazan lider olduğunu nümayiş etdirdi. Bu gün bütün dünya Prezident İlham Əliyevin verdiyi sözlərə istisnasız əməl edən, sözü ilə əməlinin üst-üstə düşən, sözünün dəyərli və keçərli olduğunu görən böyük siyasi xadim kimi tanıyır.

22 il bundan əvvəl prezident seçkilərində Cənab İlham Əliyev doğma xalqıma müraciət edərək söz vermişdir ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcək və Azərbaycanın ərazi bütövlüyünü qoruyacaq.

Sentyabr ayının 27-dən başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun qəhrəmanlığı sayəsində qələbə ilə başa çatdı. Şuşa şəhərinin və onun işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq 8 noyabr Zəfər günümüz gələcək bütün tariximizdə daim yaşayacaq. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Azərbaycan xalqına çatdırarkən demişdir: "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!". Bu fikirləri ilə Prezident İlham Əliyev bir daha Ulu Öndərimizin siyasətini inamla və qətiyyətlə davam etdirdiyini və Dahi Öndərin "torpaqlarımızın işğaldan azad edilməsi" vəsiyyətini böyük fəxarət və qürurla yerinə yetirdiyini göstərir.

## Xalq-iqtidar birliyinin qələbəsi

44 günlük Vətən Müharibəsində qazanılan qələbə xalq-iqtidar birliyinin qələbəsidir. Bu, "Qarabağ Azərbaycandır və nida" deyən Qalib Sərkərdəmiz İlham Əliyevin "Dəmir yumruq" siyasəti ilə güclü Ordumuzun 44 gün ərzində qazandığı Qələbə Zəferidir. 8 noyabr Zəfər Günü - 44 günlük Vətən müharibəsində Vətən uğrunda canından, qanından keçən igid əsgər və zabitlərimizin şəhidlik zirvəsinə ucaldığı milli qürurumuzun, yenilməzliyimizin nümayiş etdirildiyi gündür. Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev xalqa müraciətdə böyük Qələbəni xalqına bəyan etməkdən böyük fəxarət və qürur hissi duyduğunu deyib: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox".

Son 22 ildə Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu inkişaf strategiyası nəticəsində ölkəmiz dayanıqlı və davamlı iqtisadi inkişafa nail olub, əhalinin sosial-iqtisadi vəziyyəti daha da yaxşılaşıb, beynəlxalq aləmdə nüfuzu daha da artıb, dövlətimiz Cənubi Qafqazın siyasi, iqtisadi mərkəzinə çevrilib. Əhalinin sosial vəziyyətinin yaxşılaşması isə davamlı xarakter daşıyır. Vaxtaşırı olaraq şəhid ailələrinin, qazilərin mənzil, məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır. Şəhid ailə üzvləri və müharibə veteranlarından ibarət 103 min şəxsə aylıq sosial ödəniş təyin olunması, 3 565 şəxsə sığorta ödənişinin edilməsi bu kateqoriyadan olan insanlara diqqət və qayğının göstəricisidir. 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldığı xəsarətlə bağlı əlilliyi olan 17 164 şəxs üzrə birdəfəlik ödəmə verilib. Şəhid ailələri üzvləri, müharibə iştirakçılarından ibarət 11 min şəxsə 43 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Ötən dövr ərzində şəhid ailələrinə və qazilərə 13560 mənzil və fərdi ev verilib. Qazilər avtomobillərlə təmin olunub, xarici ölkələrdə müalicə və müayinələri təmin edilib.

İşğaldan azad edilən ərazilərdə geniş miqyaslı quruculuq, abadlıq, təmir və tikinti işləri həyata keçirilir. Müasir dövrün yeniliklərinə uyğun mənzillərin tikilməsi, park və xiyabanların salınması, yolların, körpülərin çəkilməsi Azərbaycanın hərb meydanında olduğu kimi arxa mövqedə də möhtəşəm qələbələr qazana bildiyinin göstəricisidir.

***İLHAM ƏLİYEV***

# Rumıniya mediası: "Azərbaycan Cənubi Qafqazda, sadəcə, iştirakçı deyil, həm də oyunun qaydalarını dəyişən ölkədir"


Culisele „conflictului temporar" dintre Azerbaidjan și Rusia. „Președintele Aliyev vrea să demonstreze că poate discuta cu Putin de la egal la egal"

10 iul. 2025, 09:00, Stiri externe
Cristian Lisandru



În doar câteva zile, relațiile dintre Azerbaidjan și Rusia au devenit, în mod neașteptat, tensionate. Totul a început atunci când câteva zeci de etnici azeri au

**Rumıniyanın "Gandul" xəbər portalında siyasi şərhçi Kristian Lisandrunun müəllifliyi ilə geniş məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya ilə münasibətdə apardığı balanslı və prinsipial siyasət təhlil olunur.**

Kristian Lisandru yazır ki, Azərbaycan-Rusiya münasibətlərində son aylarda müşahidə edilən qısamüddətli gərginliklər, əslində, Bakının geosiyasi statusunun dəyişdiyini göstərir. "Prezident İlham Əliyev artıq təkcə regional deyil, beynəlxalq səviyyəli lider kimi çıxış edir və Moskva ilə münasibətləri də bu kontekstdə yenidən formalaşdırır", - deyə o əlavə edir.

Məqalədə bildirilir ki, Azərbaycan diplomatiyası son illərdə Türkiyə, Avropa İttifaqı və Mərkəzi Asiya ölkələri ilə qurduğu strateji tərəfdaşlıqlar sayəsində həm siyasi, həm də iqtisadi müstəvidə müstəqil kurs formalaşdırıb. Bunun fonunda Bakı Rusiya ilə münasibətlərdə də əvvəlkindən daha sərbəst və çevik davranır.

K.Lisandru əlavə edir ki, Azərbaycan 2020-ci ildə Qarabağ müharibəsində qazandığı Qələbədən sonra yalnız regionda deyil, beynəlxalq arenada da nüfuzunu əhəmiyyətli dərəcədə artırıb. Prezident İlham Əliyevin yürütdüyü uğurlu diplomatik kurs sayəsində Azərbaycan Ermənistanla danışıqlarda üstün tərəfə çevrilib.

"Azərbaycan Cənubi Qafqazda, sadəcə, iştirakçı deyil, oyunun qaydalarını dəyişən və diktə edən ölkədir. Bu reallıq Moskva tərəfindən də nəzərə alınmağa başlayıb", - deyən Kristian Lisandru hesab edir ki, Azərbaycanın yürütdüyü çoxvektorlu və balanslaşdırılmış xarici siyasət modeli ölkəyə həm Qərblə, həm də Şərqlə paralel şəkildə strateji münasibətlər qurmağa imkan verir. Bu yanaşma Azərbaycanı regional gücdən qlobal gücə çevirir.



# Mediamızın 17 illik yol yoldaşı - Səs İnformasiya Agentliyi

Dünən Səs İnformasiya Agentliyinin (SİA) 17 yaşı tamam olub. Azərbaycanın müstəqil, özəl və beynəlxalq arenada tanınmış informasiya agentliklərindən biri - "Səs" Media Qrupuna daxil olan Səs İnformasiya Agentliyi 2008-ci il iyulun 15-də təsis edilib. Fasiləsiz olaraq Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərən SİA-nın ölkəmizin bütün bölgələrində, eyni zamanda Rusiya, Türkiyə, Gürcüstan, Ukrayna və Şərqi Avropa ölkələri, Qazaxıstan və Orta Asiya ölkələrindəki büroları vasitəsilə onlayn xəbər xidməti göstərir və ictimai-siyasi, iqtisadi mövzularda, habelə elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ətraf mühit və s. barədə dəqiq və operativ informasiya yayır.

Agentlik abunəçilərinə gündəlik xəbərlərlə yanaşı, videogörüntülər, həftəlik və aylıq təhlillər, statistika, proqnozlar, xüsusi fotosessiyalar təqdim edir. Regionun etimad qazanmış media şirkətləri sırasında olan SİA-nın tanınmış politoloq və mütəxəssislərdən ibarət ekspertlər qrupu təhlillər hazırlayır, monitorinqlər keçirir. SİA foto və yazılı informasiyalarla yanaşı, ölkənin sosial, siyasi, iqtisadi, idman həyatından videoxəbərlər hazırlayır, onları internet resursunda və sosial şəbəkələrdə yayır. Agentliyin multimedia və videoxəbər xidməti SƏS TV müxtəlif layihələr hazırlayır.

Agentlik xarici ölkələrin xəbər resursları ilə əməkdaşlıq edir, informasiya mübadilələri aparır. Müxtəlif tədbirlərin təşkilatçısı və informasiya dəstəkçisi rolunda çıxış edən SİA Azərbaycan mediasının yeni qolu sayılan internet medianın inkişafında xüsusi rol oynayır.

SİA-çıları əlamətdar gün münasibətilə təbrik edirik!!!

# Kirayə qalmaq seçim, yoxsa zərurətdir?

*EKSPERT AÇIQLADI*



"Hazırda Bakı şəhərində kirayə mənzildə yaşayanların böyük əksəriyyəti bu şəraitdə yaşamağa zərurətdən məcbur qalıblar. Bunun əsas səbəblərindən biri regionlarda məşğulluq imkanlarının məhdud olması və gəlir əldə etmə şərtlərinin zəifliyidir. Bu şəraitdə insanlar daha çox qazanc ümidi ilə Bakı şəhərinə üz tuturlar. Lakin paytaxta köç edən ailələrin əksəriyyətinin burada daşınmaz əmlak almaq imkanları məhduddur. Belə ki, onların ilkin mənzil və ya mülk sahibi olmaq üçün kifayət qədər maliyyə resursları yoxdur. Bu səbəbdən kirayədə yaşamaq onlar üçün yeganə çıxış yoluna çevrilmişdir". Bu sözləri SİA-ya açıqlamasında Liberal İqtisadçılar Birliyinin sədri Akif Nəsirli deyib.

Akif Nəsirli sözlərinə belə davam edib: "Bakı şəhərində kirayə mənzil bazarında qiymətlərin artması da bu miqrasiya axını ilə birbaşa əlaqəlidir. Regionlardan gələn əmək miqrantlarının sayının artması nəticəsində kirayə mənzillərə tələbat çoxalmış, bu da qiymətlərin yüksəlməsinə səbəb olmuşdur. Statistik məlumatlara əsasən, Azərbaycan əhalisinin 1.6-1.7 milyonu rəsmi olaraq Bakı şəhərində yaşayır. Lakin qeyri-rəsmi şəkildə bu rəqəm 5 milyona yaxın qiymətləndirilir. Bu şəxslərin böyük bir hissəsi kirayədə yaşamaqdadır və onların çoxu rəsmi qeydiyyatda belə deyil.

Digər ölkələrlə müqayisə etdikdə, məsələn Almaniyada əhalinin təqribən 70-80 faizi kirayə mənzillərdə yaşayır. Lakin bu, orada hüquqi və sosial sistemin fərqliliyi ilə izah olunur. Belə ki, Almaniyada şəxsi mülkiyyətin əldə olunması ciddi hüquqi prosedurlarla müşayiət olunur və bu, insanların kirayə mənzillərdə yaşamasını stimullaşdıran amillərdən biridir. Bundan fərqli olaraq, Azərbaycanda, xüsusilə Bakı şəhərində kirayədə yaşayanların təxminən 90 faizi bu şəraitə məcburiyyət səbəbindən düşmüşdür. Onların şəxsi mülkiyyət əldə etmək imkanı real deyil. Nəticə etibarilə, Bakı şəhərində kirayə mənzil bazarının genişlənməsi və qiymətlərin artması əsasən regionlardan olan əmək miqrantlarının sosial-iqtisadi vəziyyəti ilə əlaqəlidir. Bu isə öz növbəsində ölkədə ərazi üzrə sosial bərabərsizliyin və regionlararası inkişaf fərqlərinin daha dərindən təhlilini və tənzimlənməsini zəruri edir".

***Ayşən Vəli***

# Gürcü politoloq: "Azərbaycan və Ermənistan liderlərinin Əbu-Dabi görüşü sülhün nə qədər yaxın olduğunu göstərir"

Azərbaycan Prezidenti İlham Əliyevin Əbu-Dabidə Ermənistanın baş naziri Nikol Paşinyan ilə görüşü və görüşdə əldə olunan razılaşmalar Gürcüstan siyasətçilərinin də diqqət mərkəzindədir. Gürcü siyasətçilərin üçüncü tərəfin iştirakı olmadan keçirilən bu görüşdən çox böyük gözləntiləri var. Onlar hesab edirlər ki, bu cür görüşlər artıq tərəflərin böyük sülh sazişinə yaxın olduğunu göstərir.




Gürcü politoloq, siyasi şərhçi Petre Mamradze AZƏRTAC-a müsahibəsində deyib: "Cənubi Qafqazın hərtərəfli inkişafı üçün regionda sülhün bərqərar olması vacib şərtdir. Çox təəssüf ki, bu gün Cənubi Qafqaz ölkələri başqa dövlətlərin birbaşa təsiri ilə bir-birləri ilə düşmən olublar. Azərbaycanın və Gürcüstanın torpaqlarının işğalı bizim qlobal inkişafımıza ciddi maneədir. Azərbaycan torpaqlarını işğaldan azad edib və hazırda böyük sülh sazişi üzərində iş aparılır. Bu gün Azərbaycan və Ermənistan liderlərinin Əbu-Dabidə təkbətək, üçüncü tərəfin iştirakı olmadan görüşməsi sülhün nə qədər yaxın olduğunu göstərir. Azərbaycan Prezidenti İlham Əliyevin qarşı tərəfi ev sahibi kimi qarşılaması və ilk olaraq əl uzatması Azərbaycanın sülhsevər dövlət olduğunu bir daha dünyaya göstərdi".

Onun sözlərinə görə, Azərbaycan və Ermənistan rəhbərlərinin vasitəçilər olmadan birbaşa görüşmək barədə razılığa gəlməsi artıq çox ümidverici bir faktdır. Bu onu göstərir ki, tərəflərin mövcud problemin öz aralarında həll etmək iqtidarındadırlar. Bu, eyni zamanda, həm də onu göstərir ki, artıq qarşılıqlı etimad mərhələsinə keçilib və tərəflər öz aralarında hər hansı xarici müdaxilə olmadan razılaşmağa qadirdirlər.

Politoloq deyib ki, təəssüf ki, böyük sülh sazişi ilə bağlı hələ də problemlər var. Məsələn, Ermənistan Konstitusiyasının preambulasında bu gün də Qarabağın guya erməni torpağı olduğu kimi çağırış var. Bununla nə vaxtsa hesablaşmaq lazım olacaq. Ona görə də bu problem aradan qaldırılmalıdır.

"Bundan əlavə, 2020-ci ildə atəşkəs razılaşması imzalanarkən Zəngəzur dəhlizinin açılması barədə də razılıq əldə olunmuşdu. Artıq beş il keçir, amma bu məsələ də hələlik həyata keçirilməyib. Bunu izah edən müxtəlif səbəblər var, amma onların hamısını indi sadalamaq mümkün deyil. Məsələn, müəyyən mərhələdə başqa dövlətlər də məsələyə müdaxilə edərək bildirib ki, bu, onlar üçün qəbuledilməzdir. Lakin mən düşünürəm ki, artıq belə müdaxilələr olmayacaq", - deyə politoloq vurğulayıb.

O hesab edir ki, əgər bütün bu məsələlər birlikdə nəzərdən keçirilsə, bütün bunlarla bağlı razılığa gəlinərsə, o zaman böyük sülh sazişi imzalanacaq. Bu da Cənubi Qafqazda sülh və rifah naminə olduqca vacibdir. Bu, Gürcüstan üçün də önəmlidir.

P.Mamradze deyib: "Ümid edək ki, tərəflər indi birbaşa sülh sazişinə imza atmasalar belə, bu proses artıq həmin istiqamətdə ciddi bir addım olacaq və tezliklə həm sülh sazişi imzalanacaq, həm də digər detallar öz həllini tapacaq".

IX YAZI

# Milli mətbuat 150:

## Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!

Milli mətbuatımızın yubiley günlərində Cəlil Məmmədquluzadədən, onun "Molla Nəsrəddin"indən söhbət açmamaq günah olar. Çünki "Molla Nəsrəddin" bizi deyib gəlmişdi. Və elə gəlmişdi ki, gəlişindən bir əsrdən artıq zaman keçməsinə baxmayaraq sanki bu gün gəlib, bu gün də aramızdadır. Gəlişi ilə böyük töhfələrini də tarixə yazan bu mətbu orqanı, həqiqətən də milli mətbuatımızın şah əsəri adlandırmaq olar.

### Gəldin, ona görə ki...

Ey Şərqin müdrik ağsaqqallarından olan Molla Nəsrəddin! Sən bir əsr bundan əvvəl bizi - Azərbaycan xalqını, müsəlman qardaşlarını deyib gəlmişdin. Böyük demokrat yazıçı və görkəmli ictimai xadim Cəlil Məmmədquluzadənin ideyalarından, xalqını, millətini necə görmək istəyindən, dövrün ən müasir inqilabi məsələlərindən danışmağa, din pərdəsi altında min bir oyundan çıxıb milləti cəhalətə sürükləyən "ruhanilərin" iç üzünü açmağa gəlmişdin. Sən ana dilimizin qayğıkeşi oldun. Ömrünün sonunadək doğma dil uğrunda mübarizə apardın. Millət sevdasından "Dəli" olub, "bəlkə millətimə bu cür təsir edə bilərəm", - dedin. Bunun yetərli olmadığını görəndə düşüncələrindəkini "Lağlağı"lıqla anlatmağa çalışdın. "Yox, bundan da fayda olmadı, bunlarla yenə də milləti oyada bilmədim", - deyə fikirləşərkən "Molla Nəsrəddin" oldun. Vətənini el-el, oba-oba səyahətə çıxıb hər təbəqə ilə "öz dili" ilə danışmağa başladın, bəlkə oyanalar, bəlkə dəyişələr, - deyə. Molla Nəsrəddin, ağsaqqal sözü dinlənilən olar, - deyib səni yuxuya getmiş bir xeyli müsəlmanı oyatmaqda ona kömək etməyə çağırmışdı böyük Cəlil Məmmədquluzadə.







### Cəlil Məmmədquluzadə "bu gün", milləti isə "dünən" idi

"Molla Nəsrəddin":-Mənə görə Cəlil Məmmədquluzadə "bu gün" idi, milləti isə "dünən"də qalmışdı. Böyük canyanğısı ilə onları səsləyirdi: dünənlərdən bu günlərə səsləyirdi. Onu çox gözəl anlayırdım, ona görə də sözünü yerə salmağa haqqım yox idi. Gəldim, 1906-cı ilin 20 aprelində Mirzə Cəlilə köməyə gəldim və onun redaktorluğu ilə iyirmi beş il ərzində fəaliyyətimizi Tiflisdə, Təbrizdə və Bakıda böyük uğurla davam etdirdik. Gəldiyim gün üz tutdum millətə: "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım! O kəsləri deyib gəlmişəm ki, mənim söhbətimi xoşlamayıb bəzi bəhanələr ilə məndən qaçıb gedirlər, məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə. Çünki hükamalar buyurublar: sözünü o kəslərə de ki, sənə qulaq vermirlər.

Ey mənim müsəlman qardaşlarım! Zəmani ki, məndən bir gülməli söz eşidib ağzınızı göyə açıb və gözlərinizi yumub, o qədər "xaxa!.." edib güldünüz ki, az qaldı bağırsaqlarınız yırtılsın və dəsmal əvəzinə ətəkləriniz ilə üz-gözünüzü silib, "lənət şeytana!" dediniz, o vaxt elə güman etməyin ki, Molla Nəsrəddinə gülürsünüz.

Ey mənim müsəlman qardaşlarım! Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqət ilə baxınız camalınıza.

Sözümü tamam etdim, ancaq bir üzrüm var: məni gərək bağışlayasınız, ey mənim türk qardaşlarım ki, mən siz ilə türkün açıq ana dili ilə danışıram. Mən onu bilirəm ki, türk dili danışmaq eyibdir və şəxsin elminin azlığına dəlalət edir, amma hərdənbir keçmiş günləri yad etmək lazımdır: salınız yadınıza o günləri ki, ananız sizi beşikdə yırğalaya-yırğalaya sizə türk dilində lay-lay deyirdi və qulaq ağrısı səbəbinə sakit olmurdunuz. Axırı biçarə ananız sizə deyirdi: "Bala, ağlama, xortdan gələr, səni aparar" və siz dəxi canınızın qorxusundan səsinizi kəsib ağlamaqdan sakit olurdunuz. Hərdənbir ana dilini danışmaq ilə keçmişdəki gözəl günləri yad etməyin nə eybi var?!"

Fəaliyyətimizə ana dilini qorumaqla başlamışdıq. Çünki milləti yuxudan oyatmaq üçün lazım olanların ən ümdəsi dil idi. "Dil" ucbatından "Anama de ki, Fatmanın oğlu oldu"nu "Fatmanın oğlu öldü" kimi oxuyub az qala bir ananın ürəyini partladan Molla Cəfəri ittiham eləmədik, dilimizi bəyənməyib başqa dildə danışan "Bizim"obrazovanni"lar"ı qofta (küftə) atəşinə tutmadıq, "Meymunlar" kimi bir-birini yamsılayıb özgə dildə danışın, Fatmanı "Fatya", Həsəni "Qasanka" Münəvvəri "Varya" çağıranlara qarşı üsyankar olmadıq? "Əlifba" dan söhbət açıb millətin yarısının ərəb, fars, bir yarısının da rus dilində danışmasını səhifələrimizə çıxarıb "Molla Nəsrəddin"in münasibətini bildirmədik? Öz dilində danışmayanları qınamaq necə olar ki? Bax biz belə yazmışdıq: "... Allah atana rəhmət eləsin, bəs ta hanı türk dili? Qardaş, zarafat deyil ki, dilimizdən iyrənirik, vəssalam!

Uca papaqlılarımız bir-birinə kağız yazanda yazar: "və nigarani nədarim səvayi əz duri və mofariqəti şoma".

Alçaq papaqlılarımız da bircə il qorodskoy şkolada uçit eləyəndən sonra küçədə bir iznakomini vstret eləyəndə o saat şapqasını çıxarıb deyir:

- İzdrasti, bacalusqa".

### Şah İsmayıl Xətainin qılıncı, Mirzə Cəlilin qələmi

Cəlil Məmmədquluzadənin "Azərbaycan" məqaləsi isə onun vətəndaşlıq qayəsi idi.

" Bəzi vaxt otururam və papağımı qarşıma qoyub fikrə gedirəm, özümdən soruşuram ki:

- Mənim anam kimdir?

Öz-özümə də cavab verirəm ki:

- Mənim anam rəhmətlik Zöhrəbanu bacı idi.

- Dilim nə dilidir?

- Azərbaycan dilidir.

- Yəni Vətənim haradır?

- Azərbaycan vilayətidir.

- Haradır Azərbaycan?

Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən; qalan hissələri də Gilandan tutub, qədim Rusiya hökuməti ilə Osmanlı hökuməti daxilindədir "

Böyük mirzəcəlilşünas, akademik İsa Həbibbəyli özünün "Cəlil Məmmədquluzadə - Milli İstiqlal ədəbiyyatının sərkərdəsi" adlı məqaləsində yazır: "1917-ci ildə yazılmış "Azərbaycan" məqaləsində Mirzə Cəlil vaxtilə Şah İsmayıl Xətainin qılıncı ilə çəkdiyi Azərbaycan xəritəsini böyük məharətlə qələmi ilə cızmışdır. "Azərbaycan" məqaləsi Cəlil Məmmədquluzadənin Azərbaycançılıq konsepsiyasının bəyannaməsidir: Cəlil Məmmədquluzadə Azərbaycan xalqı üçün Vətən, millət və ana dilindən başqa nicat yolu olmadığını var-gücü ilə car çəkmişdir. Vətən, millət və dil məsələləri Cəlil Məmmədquluzadə yaradıcılığının əsas sütunlarıdır".



### "Mozalan", "Hop-hop", "Lağlağı", "Hərdəmxəyal"

Cəlil Məmmədquluzadə qələmi ilə birgə azad Vətən, xoşbəxt millət naminə axtarışa çıxmışdı. Hələ "Mozalan", "Hop-hop", "Lağlağı", "Hərdəmxəyal" millət, Vətən adına bir qulluq eləmək niyyətilə rusların "zadaça" dediyi 18 məsələdən ibarət "Təzə təlim kitabı" cəm etmişdilər ki, cəmiyyətin bütün eybəcərlikləri bu məsələlərdə öz həllini tapmışdı. Amma nə fayda? Bunları dərk edən kim idi? "Niyə məni döyürsünüz?" - deyib, "Niyə mən dərsdən qaçdım"ı anladanın: - "A mollalar, niyə məni döyürsünüz? Olmaya məndən qorxursunuz? Olmaya qorxursunuz ki, əyilib camaatın qulağına bir neçə söz pıçıldayam, bir neçə mətləblərdən agah edəm? Olmaya qorxursunuz ki, məcmuəmin vərəqlərini nökərlər samovar alışığı edə-edə və şəkillərini uşaqlar oynada-oynada axırda camaat gözünü açıb bəzi işlərdən xəbərdar ola?" səsinə səs verən kim idi?

"Molla Nəsrəddin" deyirdi ki, "Biz" "Nə vaxt" , "Bəs nə vaxt" "Azadiyi-vicdan" olacaqıq. "Fürsət" tapıb" xalqa "Bir para sözlər" dinlədib, "Oktyabr kimin bayramıdır?"ı açıqlaya və onlara "İnqilab lazım" olduğunu anlada biləcəyik? "İfratın mənfəəti"nin "Tərəqqi əlamətləri" olduğunu "Müsəlman içində gördüklərim"dən fərqliliyini sübut edə biləcəyik? "Çox qəribə" idi ki, "Molla Nəsrəddin" dəfələrlə yazsa da, millətə üz tutub onlara hüquqlarından, azad yaşamağın gözəlliyindən bəhs etsə də, onun "Nəsihət"ini dinləyən yox idi. Lakin mollanəsrəddinçilər bu yoldan çəkinmir, yorulmur, usanmır, "Müsəlman"lara "Qatıq ağdırmı, qaradırmı?" ilə "İsti su-soyuq su"yun fərqini yenə də izah edir və bu yolda mübarizəni böyük yanğı ilə davam etdirirdilər.

Ardı Səh. 6

# Milli mətbuat 150:

## Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!

Əvvəli Səh. 5

### Nə deyirdi "Molla Nəsrəddin"?..

"Molla Nəsrəddin": -Milləti doğru yola tək yazmaqla deyil, həm də karikaturalarla dəvət edirdik.

Jurnalın rəngarəng çıxmasında, bəzən şəkillərin, karikaturaların sanki "dil açıb" danışmasında rəssamlar - Əzim Əzimzadə, Oskar Şmerlinq, İosif Rotterin böyük əməkləri olmuşdur. Birinci nömrəmizin üz qabığında həmvətənlərimizi yatmış vəziyyətdə göstərən bir rəsm çəkdirib dərc etmişdik. Bununla da ümumi amalımızı, məqsədimizi ortaya qoymuşduq. Onları oyandırıb söylədiklərimizə qulaq asmaqlarını xahiş edirdik. Çünki "Molla Nəsrəddin"i Azərbaycan xalqının min illərdən bəri davam edib gələn dərdləri çox düşündürürdü. Bu dərdlər içərisində dini fanatizm daha dəhşətlisi idi. O dövrün cəmiyyətində dini əldə rəhbər tutub bundan yararlanan ruhanilərə hər addımda rast gəlinirdi. Onların sayı sanki yağışdan sonra çıxan göbələklər kimi gündən-günə artırdı.

Dinin mahiyyətini bilməyənlərə, bundan sui-istifadə edib camaatın malını tar-mar edənlərə, onları mövhumata sürükləyib elmdən, təhsildən yayındıranlara, azadlığı, intibahı din pərdəsi altında kəsib-doğrayanlara qarşı "Molla Nəsrəddin" üsyan edib deyirdi: - "Əvvələn, mən molla ola-ola müsəlman qardaşlarıma vəz edən vaxt deyirəm: Bir Allaha sitayiş edin, bir də Peyğəmbərə və imamlara itaət edin. Amma siz deyirsiniz: Allaha da sitayiş edin, Peyğəmbərə də, imamlara da, mollalara da, dərvişlərə də, ilan oynadanlara da, fala baxan, tas quran, dua yazan, cadukün, həmzad, əcinnə, kəlilə, dimnə, şeytan, div, mərrix, sərrix, tərrix, amax, saşan, küflə qurdu, mığmığ, mozalan - bunların cümləsinə sitayiş edin!

...Mən də mollayam, siz də molla. Amma mən müsəlman qardaşlara deyirəm: ey müsəlmanlar, gözünüzü açınız, mənə baxınız; amma siz mollalar deyirsiniz: ey müsəlmanlar, gözünüzü yumunuz, mənə baxınız.

...Mən də mollayam, siz də mollasız. Amma bir balaca təfavütü budur ki, mən heç olmasa bir parça qalın kağız üstünə bir neçə nağıl-nuğul yazıb ilan-qurbağa şəkli çəkirəm ki, oğul-uşaq şəkillərə baxıb gülsünlər və nökərlər kağızını alışıq edib, asanlıq ilə ocağı yandırsınlar... Siz mollalar deyirsiniz:

Səs salma, yatanlar ayılar, qoy hələ yatsın!

Yatmışları razı deyiləm kimsə oyatsın.

Tək-tək ayılan varsa da haqq dadıma çatsın!

Mən salim olum, cümlə cahan batsa da batsın!

Millət necə tarac olur-olsun, nə işim var?

Düşmənlərə möhtac olur olsun, nə işim var?"

Nə deyirdi ki, "Molla Nəsrəddin"? "Məscidlərimiz"də "Din"lə, "Dindarlıq"la məşğul olan dırnaqarası mollaların "Din və millət"in başına açdığı oyunlardan danışırdı. "Oruc yeyənlərin və oruc tutanların hesabı"ndan "Orucu batil eləyən şeylər"ədək açıb tökürdü ortaya. Camaatı yoldan çıxarıb günlərlə çölün düzündə, günün altında yağış üçün "Müsəlla" ya vadar edənlərin fitnə-fırıldağını lağa qoyub gülürdü. "Ruzi-aşura"dan ta "Aşura oğruları"nın hərəkətlərinədək xalqa bəyan edirdi. Küçələrdə zəncir vurub özünə zərər verən, "Baş yarmaq"la qanlarını axıdanlara üz tutub: "Bu gün Kərbəla meydanı Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, vətən hissi varsa, oranın qeydinə qalmalıdır!" - deyirdi. Amma yenə də nə fayda? "Molla Nəsrəddin" nəşrindən düz 20 il sonra "hələ ayılmayıb", - deyə hayqıranda, qonşunun "Kim ayılmayıb?" sualına "Hələ dəm alır", - dedi: "Ayılmayan həmin mənim millətimdir ki, iyirmi il bundan qabaq mən onu yuxuda qoyub gəldim".



### "Molla Nəsrəddin" Allahsız deyildi

"Molla Nəsrəddin" Azərbaycanda milli satirik mətbuatın və tənqidi-realist ədəbiyyatın əsasını qoymuşdu. Mirzə Ələkbər Sabir, Məmməd Səid Ordubadi, Əbdürrəhim bəy Haqverdiyev, Əli Nəzmi, Əliqulu Qəmküsar, Mirzəli Möcüz Şəbüstəri kimi görkəmli sənətkarları öz ətrafında toplayan dərgi açıq söz söyləyirdi, düz yol göstərirdi. Yalanı qamçılayırdı, haqsızlığı kəsirdi, ədalətsizliyə meydan oxuyurdu, fırıldaqçılara müharibə elan edirdi. Məqsəd dövrün ziyalılarının düşüncələrindəki Azərbaycanı görmək idi. Azərbaycan xalqını, millətini hər xalqdan, millətdən öndə görmək idi. Onları fanatizm, mövhumat girdabında yox, inkişaf, intibah yollarında görmək idi. Elə bütün bunlara görə də məlum qüvvələr Mirzə Cəlili dinsizliklə, "Molla Nəsrəddin"i Allahsızlıqla damğalamaq istəyirdilər. O necə Allahsız idi ki, ədəbiyyat aləmi ilə tanışlığa böyük İslam şairi, dahi Məhəmməd Füzulinin əsərləri ilə başlamışdı? O necə Allahsız idi ki, "Molla Nəsrəddin" jurnalının adının "Allahsız" adı ilə əvəzlənməsinə qəti şəkildə etiraz edib, "Allah olmayan yerdə mən yoxam", - demişdi? O necə Allahsız idi ki, yaşadığı ev dəfələrlə axtarışlara məruz qalmışdı? Nə axtarırdılar, "Allahsızın" evində?

"Molla Nəsrəddin" bu və digər səbəblərdən də yeni dövrün sərt tənqid, qınaq və təqiblərinə məruz qaldı. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında əvəzsiz xidmətləri olan, sovet dövrü kimi ağır rejimdə təzyiqlər altında işini davam etdirib sözünü deyə bilən, milli şüuru formalaşdıran jurnal 1931-ci ildə öz fəaliyyətini dayandırdı. 1932-ci ildə isə böyük mütəfəkkir-yazıçı Cəlil Məmmədquluzadə dünyasını dəyişdi. Elə Mirzə Cəlilin jurnalın nəşrinin dayandırılmasından cəmi bir il sonra ölümünə səbəb ona qarşı haqsızlıqlar, sərt başa düşülməsi oldu. O, bu haqsızlığa dözə bilmirdi. Hələ neçə-neçə nəşr olunmamış gözəl əsərləri də var idi ki, hamısını yandırdı. Od onun əllərimi, qəlbimi, yoxsa əsərlərimi yandırırdı, bunu hiss edən vardımı?..

...Bəli, tək Mirzə Cəlil deyil, Nəsimilər, Füzulilər, Nizamilər, Vaqiflər, Sabirlər - yüzlərlə şair və yazarlarımızın əksəriyyəti dövründə düzgün başa düşülməyib. Çünki Azərbaycan iştahasında olanlar xalqı, milləti əsrlərlə doğru yoldan döndərməyə çalışıb. Şükürlər olsun ki, əsrlərin mücadilə və mübarizəsi öz bəhrəsini verib, Azərbaycan müstəqil respublika olub. Dünyada tanınıb, inkişaf etmiş ölkələr sırasında yer alıb. Qızıl torpağın içərisində də öz parlaqlığını saxladığı kimi, Mirzə Cəlil kimiləri də xalq milli yaddaşının dəyər genofondunda saxlaya bilib. Onların hər biri qiymətini alıb, xalqın mənəvi irsinə çevriliblər. Budur, Cəlil Məmmədquluzadə haqqında Ümummilli Liderimiz Heydər Əliyevin dəyərli fikirləri: "Cəlil Məmmədquluzadə öz yaradıcılığı ilə, əsərləri ilə, publisistikası ilə, böyük mətbuatçılıq fəaliyyəti ilə Azərbaycan xalqının milli oyanışında, milli dirçəlişində əvəzsiz rol oynamışdır. Xalqımızın milli şüurunun formalaşmasında məhz "Molla Nəsrəddin" jurnalının və Mirzə Cəlilin fəaliyyətinin rolu misilsizdir".

2019-cu ildə Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında ölkə Prezidentinin Sərəncamı, böyük ədibin ayrı-ayrı illərdə keçirilən yubileyləri, Bakıda və doğulduğu doğma Naxçıvanda ev-muzeylərinin yaradılması, Nehrəm və Cəlilkənd kəndlərində xatirə muzeylərinin açılması, heykəlinin ucaldılması, teatr, muzey, şəhər, qəsəbə, kənd və küçələrə adının verilməsi, əsərlərinin səhnələşdirilməsi, külliyatının dəfələrlə, hətta latın qrafikası ilə nəşri, kitabxanalara hədiyyə edilməsi, onun ölməz irsinə sonsuz sevginin, sayğının göstəriciləridir.

Naxçıvanda illərdir ki, mirzəcəlilşünaslıq məktəbi fəaliyyət göstərir. Bu məktəbi yaradan akademik İsa Həbibbəyli yazır: "Böyük Cəlil Məmmədquluzadənin redaktorluğu ilə nəşr edilən məşhur "Molla Nəsrəddin" jurnalı Azərbaycan tənqidi realizm ədəbiyyatının ideya-sənət cəbbəxanasıdır. Mübariz ideyalarına və qətiyyətli mövqeyinə görə "Molla Nəsrəddin" jurnalı Azərbaycan xalqının istiqlal kitabına çevrilmişdir".

### Kaş gələ, görə bilərdiniz

Xalqın savadlanması, maariflənməsi, cəmiyyətdə baş verən qaranlıq məqamların işıqlaşması uğrunda uzun illər mübarizə aparan və 150 illik mətbuat tariximizdə özünəməxsus yeri olan şəxsiyyətlərin hər biri, eləcə də Cəlil Məmmədquluzadə, kaş ki gəlib sizin qələmlə becərdiyiniz, bizlərin isə qanla cücərtdiyimiz istiqlalımızı görə bilərdiniz. Kaş ki yaralarınıza məlhəm olacaq ana dili haqqında qanunlarımızla tanış ola, ana dilinə ucaldılan abidələrimizi görə bilərdiniz. Həmfikirlərinizi, nəşr olunan çoxsaylı qəzet və jurnalları, onlara verilən söz, mətbuat azadlığını görə bilərdiniz. Şəhər, qəsəbə, kəndlərimizdə uşaqların oxuduqları məktəbləri, respublikamızdakı ali məktəblərdə, xarici ölkələrdə təhsil alan gənclərimizi, gəncliyimizin intellektual səviyyəsini görə bilərdiniz. Kaş ki ölkəmizdəki dini tolerantlığı, sizin yaralı yeriniz olan Aşura günlərində qanvermə aksiyalarının xalqın neçə-neçə övladına həyat verdiyini görərdiniz. Kaş ki görə bilərdiniz: əsryarım öncəkindən çox fərqli əsryarım sonranı

***Mətanət Məmmədova***

# "Böyük Qayıdış: Zəfərdən bərpaya gedən yol"




"Vətən müharibəsinə qədər Azərbaycan dövləti "Böyük Qayıdış" adlı çox ciddi və strateji bir proqram hazırlamışdı. Bu proqramda torpaqlarımızın işğaldan azad olunmasından sonra atılacaq addımlar, həyata keçiriləcək tədbirlər, bərpa və yenidənqurma işləri dəqiq şəkildə planlaşdırılmışdı. 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfərdən dərhal sonra həmin proqram əsasında praktiki tədbirlər həyata keçirilməyə başlandı".



Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Aydın Mirzəzadə deyib. Onun sözlərinə görə, "Böyük Qayıdış" Azərbaycan dövlətinin, xüsusilə də cənab Prezident İlham Əliyevin uzaqgörənliyini, strateji planlama qabiliyyətini və milli məsuliyyətini bir daha nümayiş etdirdi: "Hazırlanmış plan sadəcə siyasi və texniki sənəd deyil, həm də xalqın illərlə gözlədiyi qayıdış arzusunun reallaşması üçün real yol xəritəsi idi. Həmin proqram çərçivəsində resursların düzgün hesablanması, mərhələli şəkildə infrastrukturun qurulması və təhlükəsizliyin təmin edilməsi nəzərdə tutulmuşdu. Nəticədə, qısa bir zaman ərzində ilk olaraq Zəngilanın Ağalı kəndinə, daha sonra isə digər yaşayış məntəqələrinə mərhələli şəkildə əhalinin qayıdışı başladı.

Görünən odur ki, əvvəlcə təhlükəsizlik məsələləri həll olunub, minalardan təmizləmə işləri aparılıb, daha sonra isə yollar, enerji xətləri, su və kommunikasiya infrastrukturu bərpa olunub. Bu proses paralel şəkildə aparılaraq, müasir standartlara cavab verən yaşayış evləri inşa edilib və qayıdan vətəndaşların məşğulluq məsələsi də dövlət tərəfindən həll olunub. Bir sözlə, vaxtilə işğal altında olan, viran qoyulan torpaqlarda bu gün həyat yenidən canlanır, insan nəfəsi, uşaq səsi, işıq və ümid qayıdır. Bu, cənab Prezidentin rəhbərliyi ilə Azərbaycan dövlətinin xalqı qarşısında gördüyü tarixi və möhtəşəm işlərdən biridir. Bu həm də Azərbaycan xalqının qətiyyətinin, milli birliyinin və zəfər iradəsinin rəmzidir. Bu hadisələr ölkəmizin müasir tarixində yeni, şərəfli bir səhifə kimi əbədi olaraq yadda qalacaq.

Bu gün artıq yüzlərlə vətəndaşımız öz doğma yurdlarına qayıdır. Biz o yerlərdə yenidən toyların çalındığını, körpələrin dünyaya gəldiyini, həyatın əvvəlki ritmini bərpa etdiyini və hətta digər bölgələrdə yaşayan soydaşlarımızın da həmin ərazilərə köçmək, orada yaşamaq arzusunda olduqlarını görəcəyik. Artıq Xocalı rayonunun daha iki kəndinə köçürülmə prosesi başlayıb. Əvvəlcədən hazırlanmış və təsdiqlənmiş siyahılar əsasında ailələr öz doğma torpaqlarına dönür, orada məskunlaşırlar. Bu proses sadəcə fiziki bir köç deyil, həm də mənəvi qayıdış, köklərə bağlanma, torpaqla ruhun birləşməsidir. Bu gün dünya ictimaiyyəti Azərbaycanın öz torpağına sahib çıxmasının, vətəndaşının rifahı üçün ardıcıl və məqsədyönlü siyasət yürütməsinin canlı şahididir. Yaradılan şərait bir daha göstərir ki, Azərbaycan dövləti təkcə azadlıq uğrunda deyil, həm də quruculuq və inkişaf yolunda da nə qədər güclü, məqsədli və xalqına bağlıdır. Ən önəmlisi isə odur ki, bütün bu işlər dövlətin tam maliyyə dəstəyi ilə həyata keçirilir - vətəndaş yalnızca evinə qayıdır, öz torpağında xoşbəxt və təhlükəsiz yaşamaq üçün hazır şəraitlə təmin olunur. Bu, sadəcə bir proqramın uğuru deyil - bu, milli birliyin, dövlət-xalq həmrəyliyinin, zəfərdən bərpaya, dağıntıdan inkişafa gedən yolun parlaq nümunəsidir".

***Ziya Hikmətoğlu***

2-ci HİSSƏ

# Yaşıl enerji potensialımız və mövcud istehsal həcmi qaneedicidirmi?

***Dünyada enerjiyə tələbat artdıqca vəziyyət gərginləşir. Beynəlxalq Enerji Agentliyinin dünyada enerji istifadəsinə dair statistikasına görə, 2030-cu ilədək enerjiyə olan tələbat 53% artacaq. Sürətli istismar nəticəsində neft, qaz, kömür və s. bu kimi ənənəvi enerji ehtiyatları tükənmək üzrədir. Bunun əsrin 2-ci yarısında baş verəcəyi haqda ciddi elmi proqnozlar var. Mütəxəssisin qənaətincə, bu kimi proqnozlar alternativ enerjinin vacibliyini və perspektivini göstərir.***



İlkin təhlillərə əsasən, Xəzər dənizinin Azərbaycana məxsus hissəsində külək enerjisinin ümumi texniki potensialı 157 QVt (dayazsulu hövzələrdə 35 QVt və dərinsulu hövzələrdə 122 QVt) səviyyəsində qiymətləndirilmişdir. Layihə çərçivəsində eyni zamanda dənizdə müvafiq layihələrlə bağlı investorların cəlbi, özəl sektorla tərəfdaşlığın müəyyənləşdirilməsi, yardımçı investisiyaların həyata keçirilməsi kimi dəstəklər nəzərdə tutulur. Dənizdə mövcud olan bu potensialdan səmərəli istifadə yeni iş yerləri, həmçinin ölkə iqtisadiyyatına əlavə dəyər qazandıran imkanlar yaradacaqdır.



2022-ci il 4 iyun tarixində "Bakı Enerji Həftəsi"nin Şuşada keçirilən xüsusi sessiyası çərçivəsində Energetika Nazirliyi və BƏƏ-nin "Masdar" şirkəti arasında "Azərbaycan Respublikasında quruda sənaye miqyaslı 1 QVt gücündə günəş və 1 QVt gücündə külək enerjisi layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra Müqaviləsi" və "Dənizdə 2 QVt gücündə inteqrasiya edilmiş külək və yaşıl hidrogen layihələrinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı İcra Müqaviləsi" imzalanmışdır.

2022-ci il 15 dekabr tarixində Energetika Nazirliyi və Avstraliyanın Fortescue Future Industries (FFI) şirkəti arasında Azərbaycanda bərpa olunan enerji layihələri və "yaşıl hidrogen"in potensialının öyrənilməsi və inkişafı üzrə birgə əməkdaşlığa dair Çərçivə Müqaviləsi imzalanmışdır. Müqavilə Azərbaycanda bərpa olunan enerji və "yaşıl hidrogen"in istehsalı üzrə ümumi gücü 12 QVt-dək layihələrin araşdırılması və reallaşdırılmasını nəzərdə tutur.

17 dekabr 2022-ci il tarixində Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Sazişin icrası məqsədilə ilk görüşü Cənub Qaz Dəhlizi Məşvərət Şurası Nazirlərin 9-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası Nazirlərin 1-ci iclasından başlayaraq, nazirlərin mütəmadi görüşləri keçirilir. Sazişə əsasən, Xəzər dənizində istehsal olunacaq yaşıl enerjinin Avropaya ixracı nəzərdə tutulur.

Asiya İnkişaf Bankının dəstəyi ilə həyata keçirilən "Üzən günəş panelləri sisteminin inkişafına dair biliklərin mübadiləsi və texniki yardım dəstəyi" pilot layihəsi çərçivəsində Böyükşor gölündə 100 kVt gücə malik fotovoltaik sistemin quraşdırılması, habelə günəş qurğularının quraşdırılmasında özəl sektorun iştirakının təşviqi məqsədi ilə biznes modellərinin formalaşdırılması, təlimlər vasitəsi ilə milli potensialın gücləndirilməsi nəzərdə tutulur. Gələcəkdə su hövzələri üzərində iri həcmli layihələrin həyata keçirilməsi üçün müvafiq layihə çərçivəsində araşdırmalar aparılır.

22 fevral 2021-ci il tarixində Azərbaycan Respublikasının Energetika Nazirliyi və bp şirkəti iri miqyasda karbonsuzlaşdırılmış və inteqrasiya edilmiş enerji və nəqliyyat sistemləri, o cümlədən Azərbaycanın region və şəhərlərində bərpa olunan enerji layihələri üçün tələb olunan potensialın və şəraitin qiymətləndirilməsi üzrə əməkdaşlıq etmək məqsədilə Anlaşma Memorandumu imzalayıblar. Bu memorandum Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi, rəqabətli enerji bazarının yaradılması, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi, bp-nin isə 2020-ci ildə "xalis sıfır emissiya" hədəflərini elan etməsi kontekstində imzalanıb.

Memoranduma əsasən, fəaliyyətin həyata keçirilməsi məqsədilə "Rəhbər Komitə" və "İşçi Qrupu"un yaradılması, Azərbaycanın müvafiq region və ya şəhərləri üçün karbonsuzlaşdırma üzrə "Baş Plan"ın hazırlanması nəzərdə tutulur. "Baş Plan" təmiz enerji layihələri, az karbonlu nəqliyyat, yaşıl binalar, tullantıların idarə olunması, təmiz sənaye, təbii iqlim həlləri, inteqrasiyalı tərəfdaşlıqlar, həmçinin inteqrasiyalı və karbonsuzlaşdırılmış enerji və nəqliyyat sistemlərinin hazırlanması istiqamətlərini əhatə edəcəkdir. Bundan başqa 2021-ci ilin 3 iyun tarixində Energetika Nazirliyi və bp arasında Cəbrayıl rayonu ərazisində 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi fəaliyyəti üzrə əməkdaşlığa dair İcra Müqaviləsi imzalanmışdır.

3 may 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "Yaşıl Enerji Zonası"nın yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalanmışdır. Sərəncamdan irəli gələn tapşırıqların icrası, həmçinin işğaldan azad olunmuş ərazilərdə "Yaşıl Enerji Zonası"nın yaradılması ilə əlaqədar Konsepsiyanın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi istiqamətində Energetika Nazirliyi ilə Yaponiyanın "TEPSCO" şirkəti arasında müqavilə imzalanmışdır. Müvafiq dövr ərzində müqavilə çərçivəsində nəzərdə tutulan tədbirlər həyata keçirilmiş və bunun nəticəsi olaraq "Yaşıl Enerji Zonası"nın yaradılması üzrə Konsepsiya sənədi hazırlanmışdır.

İşğaldan azad edilmiş ərazilərdə Azərbaycanın daxili su ehtiyatlarının təqribi 25%-i formalaşır və bu da təxminən illik 2.56 milyard m3 təşkil edir. Xüsusən qeyd etmək lazımdır ki, işğaldan azad edilmiş ərazilərdə günəş enerjisi layihələri həyata keçirmək üçün əlverişli potensial var. Belə ki, Zəngilan, Cəbrayıl, Qubadlı və Füzuli ərazisində müşahidə edilən günəş radiasiyası Naxçıvan MR-da müşahidə edilən günəş radiasiyasından sonra ölkə üzrə ən əlverişli ikinci regiondur. Aparılan ilkin tədqiqatlar, günəş enerjisi layihələri üçün topoqrafiya, iqlim şəraiti, şəbəkəyə yaxınlıq, enerji istehsalı potensialı, nəqliyyat infrastrukturu və digər texniki faktorların müqayisəli təhlili əsasında Cəbrayıl və Zəngilan rayonlarının ərazisi məqsədəuyğun hesab edilmişdir.



İşğaldan azad edilmiş ərazilərdə- xüsusən də Laçın və Kəlbəcərin dağlıq hissələrində əlverişli külək potensialının olması, ilkin araşdırmalara əsasən müəyyən edilmişdir. İşğaldan azad edilmiş ərazilərdə geotermal enerji mənbələrinin olmasına dair əvvəlki illərdə müvafiq elmi araşdırmalar aparılmışdır. Geotermal enerjidən əsasən elektrik enerjisi istehsalı (əlverişli temperatur və debit olarsa), istilik enerjisi təminatı və turizm-balneoloji məqsədlər üçün istifadə edilir. İlkin təhlillər göstərir ki, Kiçik Qafqazın dağlıq hissəsində geotermal mənbələr var (4000-5000 m3/gün (30-74°C)). İlkin müşahidələrə əsasən, bu potensialdan müvafiq olaraq istilik təminatı və balneoloji məqsəd üçün istifadə daha məqsədəuyğundur.

3 fevral 2023-cü il tarixində Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası Nazirlərin 9-cu iclası və Yaşıl Enerji Məşvərət Şurası Nazirlərin 1-ci iclası çərçivəsində Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti arasında "Dənizdə 1,5 QVt-dək külək layihəsinin həyata keçirilməsinə dair İcra Müqaviləsi", "Quruda 1 QVt külək stansiyasının yaradılmasına dair İcra Müqaviləsi" və "Azərbaycan Respublikasında enerji saxlanc sistemlərinin inkişaf etdirilməsinə dair Anlaşma Memorandumu" imzalanıb.

Göründüyü kimi, Azərbaycanın çox nəhəng yaşıl enerji potensialı var. Bərpaolunan və ekolo təmiz enerji növləri sahəsində çox böyük işlər görülüb və hazırda bir sıra layihələrin reallaşdırılması işləri gedir. Azərbaycan onsuz da dünyada enerji ölkəsi kimi tanınıb. İndiyədək bu əsasən karbohidrogen resursları üzrə idi, indi isə yaşıl enerji mərkəzi kimi dünyada tanınmağa başlayır.

Enerji sektorunun diversifikasiyası ilə bağlı hökumətin elan etdiyi əsas məqsədlərdən biri Azərbaycanda enerji tələbatının ümumi həcmində alternativ enerjinin səviyyəsini sürətlə yüksəltməkdir. Böyük resurslarımız var, amma bu sahənin sürətli inkişafı üçün yeni texnologiyalara, mütəxəssislərə, böyük investisiyalara ehtiyac var.



Ona görə də, bu istiqamətdə görülən işlər daha da sürətləndirilməli, bu sahə iqtisadiyyatın diversifikasıyası kontekstindən nəzərdən keçirilməli, neft sektoruna alternativ sahələrdən biri kimi inkişlaf etdirilməlidir.

Bunun üçün bu sahədə özəl şirkətlərin fəaliyyəti stimullaşdırılmalı, onlara müəyyən müddətə vergi güzəştləri edilməlidir. Bundan başqa, xarici fondlarda 1 faizlə gəlirliliklə saxlanan maliyyə ehtiyatlarımızdan müəyyən bir hissəni bu sahəyə investisiya və kredit şəklində yönəltməklə qısa müddətdə ciddi nəticələr əldə etmək olar.

Enerjinin daimi bazarı var, hətta biz elektrik enerjisi şəklində sata bilməsək belə, ölkədə daxili neft-qaz istehlakını azalda bilər, enerjiyə olan tələbatın böyük bir hissəsini öz alternativ enerjimizlə ödəyərək, qalan nefti və qazı da xaricə baha qiymətə sata bilərik.

Göründüyü kimi, bu, olduqca strateji və əvəzedilməz, daimi işləyəcək və xeyir verəcək bir sahədir. Düzdür, ilk vaxtlarda müəyyən çətinliklər yaranır və yaranacaq, lakin biz strateji qitisadi inkişaf sistemi yaratmağa məcburuq. Unutmaq lazım deyil ki, tükənən resurslara dayanan iqtisadiyyat gələcək üçün böyük təhlükə yaradacaq. Nə qədər ki gec deyil, bu barədə daha ciddi düşünməliyik.

Bu sahədə özəl şirkətlərin və vətəndaşların da fəal iştirakı daha effektli olardı. Hər şeyi dövlətdən gözləmək olmaz. Dövlət sadəcə, bunun üçün lazımi şərait yarada bilər və bu məsələnin daha bir tərəfini təmin edə bilər. Belə ki, alternativ enerji istehsal şəxslərin öz ehtiyaclarından artıq istehsal etdikləri enerjinin artıq qalan hissəsinin sata bilməsi imkanı təmin olunmalıdır. Bu addım bu sahənin inkişafına ciddi təkan verə bilər. Dövlətin enerji təminatı öhdəliyi azalar və artıq qalan enerji resurslarını ixrac edib xeyli valyuta qazana bilər. Hər bir halda bərpaolunan enerji gələcəyin qarantıdır. Bu istiqamətdə işləri sürətləndirmək lazımdır.

***Elçin Bayramlı***

# Mirzə Babayevin musiqi dünyası

Müğənni, memar, aktyor. Hər bir sahədə özünü doğruldan insan. Bütün zamanlarda xatırlanan və dinləyicilərin sevgisini qazanan müğənni. Arif insan! Hamının sevilən müğənnisi olan Mirzə Babayev. Sənət dünyası ilə həzin musiqilərini zaman-zaman yaşatmağa nail oldu. İstedadı ilə zəhməti onu ucalığa yüksəltdi. Azərbaycan estrada musiqisinin banilərindən biri Mirzə Babayevin 16 iyul doğum günüdür. 1913-cü ildə dünyaya gələn Mirzə Babayev ilk təhsilini Sənaye İnstitutunun memarlıq fakültəsində alıb. Mirzə Babayev Bakıda və Azərbaycanın digər şəhərlərində olan bir çox binaların və muzeylərin layihə müəllifidir. Mirzə Babayev müğənnilik fəaliyyətinə 40-cı illərin əvvəlində müharibədən qayıdan zaman, görkəmli bəstəkar Tofiq Quliyevin rəhbərlik etdiyi caz orkestrində başlayıb. 1948-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına, məşhur müğənni Bülbülün sinfinə daxil olub. Mirzə Babayev 30-dan artıq filmdə rol alıb. Uzun illər Azərbaycan Dövlət Filarmoniyasında çalışıb. Azərbaycan respublikasının əməkdar artisti, xalq artisti, iki dəfə "Humay" mükafatı laureatı olub. Ömrünün 90-cı ilində dünyasını dəyişib. Belə bir tərcümeyi-hala malik müğənninin fəaliyyəti bu illərin dönəmində yaddaqalan hadisələrlə müşayiət olunur.

Yaşı 90-ı haqlasa da, gənclik hərarəti var idi Mirzə Babayevin qəlbində. Oxuyurdu, rəqs edirdi, sifətindəki təbəssüm tamaşaçını ovsunlayırdı. Mirzə Babayev 2003-ci il yanvarın 13-də, ömrünün 90-cı ilində dünyasını dəyişdi. Bu istedadlı sənətkarın ömür kitabını vərəqlədikcə Azərbaycanımızın musiqi tarixinin böyük bir dövrü gözlərimiz qarşısında canlanır. Bu tarixin Mirzə Babayevlə bağlı səhifələri daha maraqlı, daha zəngindir. Mirzə Babayevin tərcümeyi-halı bir əsrə yaxın bütöv bir dövrü əhatə edir.








## YARATDIĞI OBRAZLARIN ƏSL MEMARI

Azərbaycan Dövlət Konservatoriyasında təhsil alarkən müəllimi hələ o zaman hiss etmişdi ki, Mirzə Babayevin həm də aktyorluq istedadı var. Elə bu istedaddan irəli gəlirdi ki, o, onlarla filmdə obraz yaratmışdı. Mirzə Babayev, həm də gözəl kino aktyoru idi. Azərbaycan kinosunda onun yaratdığı rolların özünəməxsus gözəlliyi var. Bu rolların epizodik və yaxud böyük həcmi olmasının o qədər də fərqi yoxdur. Mirzə Babayev yaratdığı obrazı duyur, öz içindən keçirir və tamaşaçıya onu bütöv xarakter kimi təqdim edirdi. "Dərviş Parisi partladır" filmində Məstəli şahı oynayır. Kamil Rüstəmbəyovun bu filmində aktyor çox orijinal bir obraz yaradıb. Hətta bu vaxta kimi Məstəli şahın teatrdakı ifaçılarından da çox-çox irəli gedə bilib. Ümumiyyətlə, Mirzə Babayevin kino qəhrəmanları özünəməxsusluğu ilə seçilir. "Sevil", "Yenilməz batalyon" və onlarca digər filmlərdə aktyor yaddaqalan, gözəl obrazlara ekran həyatı vermişdir. Mirzə Babayevin artistizminə nikbin bir ruh hakim idi. Onunla işləyən rejissorlar deyirdilər ki, Mirzə Babayevlə işləyəndə heç yorulmaq bilmirdik. Çəkiliş meydançasında elə əhval-ruhiyyə yaradırdı ki, hamı məmnun qalırdı. Ekranda görünməsi ilə tamaşaçının ovqatına tamam yeni bir ruh gətirirdi. Bir sözlə, o yaratdığı obrazın əsl memarına çevrilirdi. "Onu bağışlamaq olarmı?" filmində Tərlanın mahnılarını, "O olmasın, bu olsun" filmində Məşədi İbadın bütün mahnılarını o yüksək koloritlə ifa etmişdir. Mirzə Babayevin müğənni kimi ifaçılığı ilə aktyorluğu ahəngdarlıq təşkil edirdi. "Dəli Kür" filmində Molla Sadığın qurduğu kef məclisi onun qeyri-adi səsi ilə yadda qalıb.

## "MƏNİ MİRZƏ EDƏN O MAHNIDIR"

Bu gün onun çəkildiyi filmlərə, televiziya verilişlərinə baxdıqca bu böyük sənətkara xalq məhəbbətinin, onun musiqimizin inkişafındakı xidmətlərinin canlı şahidinə çevrilirsən. Dünya və milli musiqimizin elmi əsaslarına yiyələnən Mirzə Babayev tezliklə Azərbaycan estradasının ulduzlarından birinə çevrilmişdi. Harda işləməsindən asılı olmayaraq, Mirzə Babayev milli musiqimizin təbliğatçısı idi. Onu yaxşı tanıyır və sevirdilər. "Limanlar", "Saçlarına gül düzüm", "Sən uzaq, yaşıl ada" mahnılarını onun ifasında dinlədikcə insan ruhu, qəlbi təmizlənib, nəğməli bir dünya yaşanılır. Bütün mahnılarını sevərək oxuyurdu, xüsusi ilə "Limanlar"ı. "Məni Mirzə edən o mahnıdır, o mənim taleyimin mahnısıdır. Bunun tarixdə qalmasını istəyirəm", - M.Babayev duyğularını belə dilə gətirmişdi. Doğrusu, bu gün insan Mirzə Babayevin yoxluğuna inana bilmir. Elə hiss edirsən ki, yenə də hansısa konsert salonunda səhnəyə çıxıb gənclik həvəsiylə öz nəğmələrini oxuyacaq. Yaxşı ki, bu nəğmələrin yazıldığı lentlər, videolar saxlanılır və onlar kifayət qədərdir.

Oxuduğu mahnıların hər birində nikbin, həyatsevər bir ovqat yaradıb. Yaşının ahıl dövründə belə qəlbində gənclik hərarəti var idi. Tofiq Quliyev, Emin Sabitoğlu kimi bəstəkarların mahnıları onun ifasında ədəbilik qazandı. Müğənni Azərbaycan musiqi tarixində nadir ifaçılardandır ki, mahnıları uzun illər repertuarında yaşamışdır.

İllər ötür, zaman dəyişir. Amma onun ifasında səslənən mahnıların gözəlliyi öz ovqatını qoruyub saxlayır. Xalq artisti ona verilən bu adı bütün yaradıcılığı boyu doğrultdu. Gözəl ifasını təmənnasız olaraq çoxsaylı dinləyicilərinə, tamaşaçılarına təqdim etdi. Zövqlü dinləyicinin qəlbində əbədi abidəsini yaratdı. Bir əsrə yaxın ömrün sənət dünyasını yaşadı. Kimlər gəldi, kimlər getdi, bu dünyadan, bu dünyadan!.. Arif olan nakam getməz, bu dünyadan, bu dünyadan...

***Zümrüd BAYRAMOVA***

## "Biz multikultural cəmiyyətik və ənənələri yaşatmaq bizim borcumuzdur"

"Yardımlaşma, filantropiya və bölüşmə mədəniyyəti Azərbaycan cəmiyyəti üçün həmişə xarakterik olub. Azərbaycan xalqı multikultural bir cəmiyyətdir. Cəmiyyətimiz həmişə bir-birinə dayaq durub". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Üzeyir Şəfiyev deyib. Onun sözlərinə görə, hələ orta əsrlərdə Azərbaycanın böyük mütəfəkkiri və şairi Nizami Gəncəvi deyirdi: "Bizdə bərabərdir hamının varı, bərabər bölərik bütün malları. Bizdə artıq deyil, heç kəsdə heç kəs bizdə ağlayana heç kimsə gülməz".



"Bu da göstərir ki, orta əsrlərdən bu yana Azərbaycanda həmişə filantropik dəyərlər, paylaşma və bölüşmə mədəniyyəti mövcud olub. Bu, həm İslama qədərki dövrdə, həm də İslam dövründə özünü göstərib. Dədə Qorqud dastanlarında və Azərbaycan ağız ədəbiyyatında da bu dəyərlər öz əksini tapıb. İslam dinində belə bir maraqlı məqam var: sağ əlin verdiyini sol əl bilməməlidir. Bu, əxlaqlı bir yanaşmadır. Amma yaxşı nümunələrin, örnəklərin yayılması üçün media vasitəsilə paylaşılması da mümkündür - təbii ki, bunu özünü reklam məqsədilə yox, örnək olmaq və təşviq üçün etmək lazımdır. Əgər kimsə paylaşdığı yardımla bağlı mükafat gözləyirsə, bu, artıq mənəvi çatışmazlıqdır. Bu örnəkləri yaymaq lazımdır ki, insanlar arasında korporativ sosial məsuliyyət və paylaşma mədəniyyəti artsın. Bu, həm dinimizdə var, həm də milli-mənəvi dəyərlərimizdə. Azərbaycan atalar sözlərində də deyilir: "Sevinci bölərsən, çoxalar; kədəri bölərsən, yox olar."

Azərbaycan cəmiyyəti sosial cəmiyyətdir. İnsanlar hər zaman bir-birinin dərdini bölüşüb. Məhz buna görə də Azərbaycanda intihar və sosial təcrid halları az olub. İnsanlar problemlərini paylaşmağı bacarıb. Bəzən isə olur ki, bəzi insanlar xırda yardımı özünü tərif üçün nümayiş etdirir. Bu, etik baxımdan doğru deyil. Amma filantrop dəyərlərin, xeyriyyəçilik nümunələrinin tanıdılması müsbət haldır.

Ölkə başçısı da zaman-zaman çıxışlarında qeyd edir ki, sahibkarlar təkcə gəlir deyil, sosial məsuliyyət də daşımalıdır. Bu, dövlətin deyil, bütövlükdə cəmiyyətin məsələsidir. Və biz bu dəyərləri gələcək nəsillərə sosial varislik yolu ilə ötürməliyik - eqoist şəkildə yox, əxlaqi formada. Bu, bizim millətimizin xarakterindən və təbiətindən doğur. Biz multikultural cəmiyyətik və bu ənənələri yaşatmaq bizim borcumuzdur".

***Ziya Hikmətoğlu***

## *EKSPERT ŞƏRH ETDİ*

# “Təhsilin keyfiyyəti təkcə sinif otağında deyil,...”



”Təhsil nəzəri cəhətdən cəmiyyətdə sosial bərabərliyi təmin edən ən güclü vasitələrdən biri hesab olunur. Çünki təhsil hər bir fərdin doğulduğu ailənin maddi və sosial vəziyyətindən asılı olmayaraq, öz potensialını kəşf edib inkişaf etdirməsi üçün bərabər imkanlar təqdim etməlidir. Lakin real həyatda bu ideal tez-tez pozulur və əksər hallarda təhsil sistemi sosial təbəqələşməni azaltmaq əvəzinə, onu daha da gücləndirən bir amilə çevrilir”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti İlqar Orucov deyib.



Onun sözlərinə görə, bu problemin kökündə ilk növbədə, ailələr arasındakı maddi imkan fərqləri dayanır. Maddi imkanı olan ailələr övladlarının keyfiyyətli təhsil alması üçün daha yaxşı məktəblər seçə bilir, onları özəl dərslərə, hazırlıq kurslarına və beynəlxalq proqramlara yönləndirə bilirlər: ”Bundan əlavə, bu uşaqların əlində müasir texnologiyalar, əlavə tədris vəsaitləri, fərdi müəllimlər, xarici dil kursları və digər inkişaf vasitələri olur. Bu imkanlar isə onlara ali məktəblərə qəbul olmaqda, yüksək nəticələr göstərməkdə və gələcək karyeralarında uğur qazanmaqda ciddi üstünlük qazandırır. Əksinə, aztəminatlı ailələrin övladları çox zaman yalnız dövlət məktəblərində aldıqları rəsmi təhsillə kifayətlənmək məcburiyyətində qalır. Bəzən bu məktəblərin maddi-texniki bazası zəif olur, müəllim çatışmazlığı yaşanır və ya təhsilin keyfiyyəti bölgələr üzrə qeyri-bərabər şəkildə paylanır. Bu da həmin uşaqların həm akademik göstəricilər, həm də özünəinam və motivasiya baxımından geridə qalmasına səbəb olur. Zaman keçdikcə bu fərq daha da dərinləşir və bir növ nəsildən-nəslə ötürülən sosial ədalətsizlik formasını alır.

Təhsil yalnız bilik vermir - o, eyni zamanda bir insanın gələcək həyat yolunu, düşüncə tərzini və cəmiyyətdə hansı mövqeyə sahib olacağını formalaşdırır. Təhsildə yaranan bu bərabərsizliklər sonradan əmək bazarında, gəlir bölgüsündə və sosial imkanlara çıxışda da özünü göstərir. Nəticədə, varlı ilə kasıb arasındakı fərq nəinki azalır, əksinə daha da güclənir və cəmiyyətin bütövlüyünə təhlükə yaradan ciddi sosial parçalanmalara səbəb olur. Bu problemin həlli üçün dövlətin təhsil sahəsində daha məqsədyönlü, planlı və inklüziv siyasət yürütməsi vacibdir. Xüsusilə regionlarda yaşayan və ya aztəminatlı ailələrdən olan uşaqlar üçün əlavə dəstək proqramlarının həyata keçirilməsi zəruridir. Dövlət məktəblərinin maddi və texniki təminatı yaxşılaşdırılmalı, müəllimlərin peşəkarlığı artırılmalı və təhsildə rəqəmsal texnologiyaların rolu genişləndirilməlidir. Hər bir şagirdə fərdi inkişafını təmin edəcək resurslar eyni səviyyədə təqdim olunmalıdır. Eyni zamanda cəmiyyətin və valideynlərin maarifləndirilməsi də vacib amillərdəndir. Təhsilin keyfiyyəti təkcə sinif otağında deyil, eyni zamanda ailədəki dəstək və mühitlə də formalaşır. Valideynlərin övladlarının təhsilinə verdiyi önəm, onların uğur yolunda motivasiyasını artıran əsas faktorlardan biridir.

Əgər biz təhsili cəmiyyətin bütün təbəqələri üçün real və əlçatan edə bilsək, bu zaman sosial ədalətsizliyin qarşısını qismən də olsa ala bilərik. Əks halda, təhsil yalnız imkanı olanların uğur vasitəsinə çevriləcək və bu da cəmiyyətdə bərabərlik, ədalət və insan hüquqları prinsiplərinə zidd olacaq. Təhsil sisteminin əsas məqsədi isə yalnız diplom vermək deyil, cəmiyyətin hər bir üzvünün potensialını kəşf etməsinə və inkişafına dəstək olmaqdır. Bu məqsədə nail olmaq üçün sistemli, bərabər və davamlı təhsil siyasətinə ehtiyac var”.

***Ziya Hikmətoğlu***

# Ursula von der Leyen Trampa nifrət edir

## *ABŞ və Avropa arasındakı "tarif müharibəsi" necə bitəcək?*

Ursula fon der Leyenin rəhbərlik etdiyi Avropa Komissiyası Aİ-yə üzv dövlətlərə daha yüksək rüsumların tətbiq oluna biləcəyi ABŞ mallarının siyahısını təqdim edib. Trampın avqustun 1-dən etibarən bütün Aİ ölkələrinin ABŞ-a mallarının ixracına görə 30% rüsum ödəyəcəkləri barədə açıqlaması Aİ-də bomba effekti yaradıb. Hələ partlamayıb, amma Tramp təhdidini yerinə yetirsə, məsələn, Almaniyanın avtomobil sənayesi iflas edəcək. Çünki alman BMW və Mersedeslərin qiymətinin artması onları amerikalı alıcılar üçün əlçatmaz edəcək. Digərləri arasında, Fransa və İtaliya şərab sənayesi çökəcək - onlar ixrac gəlirlərinin 27%-ni amerikalılardan alırlar. Və onlar, xaricdəki şərabların qiymətinin kəskin qalxması halında, özlərinin Kaliforniya şərablarına üstünlük verə bilərlər.



Avropa bir sual qarşısındadır: təslim olmaq, yoxsa müqavimət göstərmək? Avropa Parlamentinin ən məsuliyyətsiz üzvləri, həmişə olduğu kimi, seçicilərin qəzəbini asanlıqla xarici aləmə ötürə bilirlər, çünki ABŞ-la "ticarət müharibəsi"nin nəticələrini hər bir ayrı-ayrı ölkənin hökumətləri həll etməli olacaq. Avropa Parlamentinin Ticarət Komitəsinin sədri Bernd Lange Trampın bəyanatını ”üzünə sillə” adlandırıb və Aİ-nin qabaqlayıcı əks tədbirlərinin bazar ertəsi qüvvəyə minməsinə çağırıb.




Və kifayət qədər döyüşkən olan Ursula von der Leyenin rəhbərlik etdiyi Avropa Komissiyası bu gün Aİ-yə üzv dövlətlərə artan tariflərə məruz qala biləcək 70 milyard avro dəyərində ABŞ mallarının siyahısını təqdim etdi. Ümumiyyətlə, Ursula proporsional cavab verəcəyini vəd etdi, lakin Aİ ABŞ-a ildə Amerikanın Avropaya ixracından 198 milyard avro daha çox mal ixrac edərsə, bu necə mümkün ola bilər?

Orta Asiya miqrantları bir girişi icarəyə götürdükdə, üçü icarəyə verirlər: Koreyalılar Rusiyada ikinci cəbhə açıblar - əmək cəbhəsi





Rusiya Elmlər Akademiyasının Avropa İnstitutunun Fransız Araşdırmaları Mərkəzinin rəhbəri Sergey Fedorov: "Bir çox avropalı siyasətçilər Trampı dərhal və əbədi olaraq düşmən etməyin əleyhinədirlər”. ”Onların təklifi belədir: gəlin danışıqları davam etdirək, vaxtı uzataq və Donaldın soyumasına icazə verək. O, strategiyasının - idxal vergisi vasitəsilə hasilatı ABŞ-a qaytarmaq - işləmədiyini görəndə, Avropanı təhqir etməyi dayandıracaq.




Təkcə xarici mallara tətbiq edilən rüsumlar istehsalı Amerikaya qaytarmayacaq. Amerikalıların ən gözəl saatı keçdi: altmışıncı və yetmişinci illərdə onların avtomobil sənayesi dünyanın ən yaxşısı idi. Əvvəlki mövqelərinə qayıtmaq üçün təkcə idxala qadağa kifayət etmir. Lakin Tramp artıq ABŞ-ın ticarət tərəfdaşı kimi reputasiyasını məhv edib - və uzun müddətdir”.

***V.VƏLİ***

# Azərbaycanda yeni Milli Parklar

## Dövlət başçısının Sərəncamı ilə Axar-Baxar və İlisu milli parkları yaradılır

Azərbaycan təbiətinin əsrarəngsizliyi onun milli parklarında bir daha özünü göstərir. Milli parklar ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi və təbiəti mühafizə, maarifçilik, elmi, mədəni və digər məqsədlər üçün istifadə olunan təbiəti mühafizə və elmi tədqiqat idarələri statusuna malik olan ərazilərdir. Milli parklar xüsusi mühafizə edilən təbiət əraziləri olmaqla, ətraf mühitin, bioloji müxtəlifliyin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində Azərbaycanın beynəlxalq səviyyədə götürdüyü öhdəliklərin yerinə yetirilməsində xüsusi əhəmiyyət kəsb edir. Milli parklar 310.136,5 hektarlıq ərazi ilə Azərbaycan ərazisinin 3,58%-ni təşkil edir. Bununla yanaşı, yeni milli parkların, dövlət təbiət qoruqlarının yaradılması istiqamətində müvafiq işlər davam etdirilir.

Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Axar-Baxar və İlisu milli parkları yaradılacaqdır. Sərəncam



xüsusi mühafizə olunan təbiət əraziləri şəbəkəsinin genişləndirilməsi, biomüxtəlifliyin qorunub saxlanılması, ətraf mühitin dayanıqlı idarə olunması ilə yanaşı, sosial-iqtisadi imkanların artırılması, yerli icmaların ekoloji təşəbbüslərə inteqrasiyası və regionlarda ekoturizmin inkişafını təmin etmək məqsədi daşıyır. Samux rayonunun dövlət ehtiyat fondu torpaqlarından 11113,46 hektar, Yevlax rayonunun dövlət ehtiyat fondu torpaqlarından 7000,10 hektar və Qax rayonunun dövlət ehtiyat fondu torpaqlarından 5788,43 hektar ayrılmaqla, bu Sərəncama əlavə edilən yerquruluşu planında göstərilmiş 23901,99 hektar sahədə Azərbaycan Respublikasının Axar-Baxar Milli Parkı yaradılacaqdır. Eləcə də Zaqatala rayonunun dövlət ehtiyat fondu torpaqlarından 206,74 hektar və Qax rayonunun dövlət ehtiyat fondu torpaqlarından 13759,26 hektar ayrılmaqla, bu Sərəncama əlavə edilən yerquruluşu planında göstərilmiş 13966,0 hektar sahədə Azərbaycan Respublikasının İlisu Milli Parkı yaradılacaq.

Azərbaycanda xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılmasına 1910-cu ildən başlanılıb. 3 min 500 hektar sahədə yaradılmış Eldar şamı Botaniki Yasaqlığı Azərbaycanın, eləcə də Cənubi Qafqazın ilk xüsusi mühafizə olunan təbiət ərazisi hesab edilir. İlk qoruq 1925-ci ildə yaradılmış Göygöl Dövlət Təbiət Qoruğu, ilk milli park isə 2003-cü ildə yaradılmış Həsən Əliyev adına Zəngəzur Milli Parkıdır. Daha sonra Şirvan Milli Parkı, Ağgöl Milli Parkı, 2004-cü ildə Hirkan Milli Parkı, Altıağac Milli Parkı, 2005-ci ildə Abşeron Milli Parkı, 2006-cı ildə Şahdağ Milli Parkı, 2008-ci ildə Göygöl Milli Parkı, 2012-ci ildə isə Samur-Yalama Milli Parkı yaradılıb.

### RƏNGARƏNG TƏBİƏT KOMPLEKSLƏRİNƏ MALİK 10 MİLLİ PARK

2008-ci ildə Hirkan Milli Parkının ərazisi 13.037 hektar genişləndirilərək 29.760 hektardan 42.797 hektara, 2010-cu ildə Şahdağ Milli Parkının ərazisi 14.613,1 hektar genişləndirilərək 115.900 hektardan 130.508,1 hektara çatdırılıb. Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı, Şirvan Milli Parkı, Ağgöl Milli Parkı, Hirkan Milli Parkı, Altıağac Milli Parkı, Abşeron Milli Parkı, Şahdağ Milli Parkı, Göygöl Milli Parkı, Samur-



Yalama Milli Parkı fəaliyyət göstərir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2004-cü ilin 9 fevral tarixində yaradılan Hirkan Milli Parkının ərazisinin çox hissəsi meşələrlə örtülüdür. Buradakı bitkilərin əksəriyyətinin adı Azərbaycanın "Qırmızı Kitabı"na daxil edilmişdir. Hirkan Milli Parkının ornitofaunasına daxil olan qara leylək, məzar qartalı, qıvrımlələk qutan, turac, mərmər cürə, Talış qırqovulu, Hirkan arıquşu, toğlugötürən və s. quşların adları Azərbaycanın "Qırmızı Kitabı"na daxil edilmişdir. Parkın heyvanat aləmi çox zəngindir. Burada məməlilərdən bəbir, xallı maral, vaşaq, porsuq, qaban, cüyür, yenot və s. növlərə rast gəlmək olar.

Şirvan Milli Parkında qaraşoranlı, şahsevdi və duzlaq-çoğanlı, yarımsəhra bitkiləri və çərənli-yovşanlı, yovşanlı-efemerli, yovşanlı, xos təkli, dənli-müxtəlifotlu, efemerli, sahil



qumlu və çala-çəmən (dəvəotlu) bitki formasiyaları üstünlük təşkil edir. Şirvan Milli Parkının ərazisində 4 növ suda-quruda yaşayan heyvanlara rast gəlinir. Bunlar Suriya sarımsaqiyli qurbağa (Pelobates syriacus), yaşıl quru qurbağası (Bufo viridis), Kiçik Asiya ağac qurbağası (Hyla arborea savigini) və göl qurbağasıdır (Rana ridibunda). Suriya sarımsaqiyli qurbağa nadir və nəsli kəsilmək təhlükəsi ilə üzləşmiş növ olduğu üçün "Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Siyahısı"na və Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmişdir, qanunla qorunur.

Ağcabədi və Beyləqan rayonlarının ərazisində olan Ağ göl Azərbaycanın ən məşhur çöl-göl ekosistemi olub, köçəri və yerli quşların və digər heyvanların məskunlaşdığı ərazilərdən biridir. Ağ gölün qorunmasının beynəlxalq əhəmiyyəti vardır. Bu da göldə adları Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahı"sına və Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmiş quşların məskunlaşması ilə bağlıdır. Ağ göl mühüm su-bataqlıq ərazisi kimi miqrasiya edən quş növlərinin qışlama yeri olub, Milli Parkın ərazisində yayı quraq keçən yarımsəhra və quru bozqırların mülayim-isti iqlim tipi hakimdir. Belə iqlim şəraiti (gölün suyunun bəzən qışda donması müstəsna olmaqla) burada quşlar və məməlilərin məskunlaşması üçün əlverişli şərait yaradır. Ağ göl Milli Parkında quşlardan mərmər cürə, turac, bəzgək, qara leylək, böyük və kiçik qarabattaqlar, haraýçı və fısıldayan qu quşları, Misir vağı, çobanaldadan, böyük su fərəsi, sultan toyuğu, ərsindimdik, qıvrımlələk qutan, ağquyruq dəniz qartalı, ağgöz dalğıc, adi qızılqaz, yaşılbaş ördək, qazlar (boz, qaşqa və qırmızıdöş) və s. məskunlaşmışdır. Milli Parkın ərazisində məməli heyvan növlərindən canavar, çaqqal, çöl donuzu, tülkü, dovşan və müxtəlif yarasalara rast gəlinir.

Ötən il ərzində ölkənin müxtəlif ərazilərini əhatə edən milli parklarımızı 224 min 638 turist ziyarət edərək təbiətin bizə bəxş etdiyi gözəlliklərdən zövq alıb. Ən çox ziyarət olunan milli parklar arasında ilk üçlükdə Göygöl, Şahdağ və Abşeron milli parkları yer alıb.

Ölkə üzrə rəngarəng təbiət komplekslərinə malik 10 milli park fəaliyyət göstərir və hər gün ekoloji turizm həvəskarları üçün açıqdır. Milli parklarda meşə, dağ, dəniz və digər təbii ekosistemləri əhatə edən 116 ekoturizm marşrutu mövcuddur.

Hazırda Azərbaycanda 893 min hektar sahəni əhatə edən mühafizə olunan təbiət əraziləri var. Bunlardan 10-u milli park, 10-u dövlət təbiət qoruğu, 24-ü dövlət təbiət yasaqlığıdır. Ümumilikdə, xüsusi mühafizə olunan təbiət əraziləri ölkə ərazisinin 10,31 faizini, ayrılıqda milli parklar ölkə ərazisinin 4,87, dövlət təbiət qoruqları 1,39, dövlət təbiət yasaqlıqları isə 4,05 faizini təşkil edir. Milli parklarımız Abşeron yarımadasında, ölkənin şimal, cənub və qərb hissəsində yerləşməklə rəngarəng biomüxtəliflik və landşaft komplekslərini əhatə edir.

***Nəzakət ƏLƏDDİNQIZI***



Vüqar Vəliyev

## "Sözümüzü uşağımıza öz dilimizdə deyək"

**Ana dili - xalqın varlığı, millətin nəfəsidir. Bir xalqın dili yoxdursa, onun nə kimliyi, nə də gələcəyi ola bilər. Bu gün dünyada yüzlərlə millət yaşasa da, yalnız dilinə sahib çıxanlar tarixdə iz buraxa bilmişlər. Azərbaycan xalqı da minillər boyu öz ana dilini yaşatmaq, qorumaq və inkişaf etdirmək uğrunda mübarizə aparmışdır.**

Azərbaycan türkcəsi sadəcə danışıq vasitəsi deyil, eyni zamanda mədəniyyətimizin daşıyıcısı, ədəbiyyatımızın, musiqimizin, tariximizin səsidir. Bu dil Füzulinin eşqini, Vaqifin hikmətini, Sabirin tənqidini, Cəlilin cəsarətini, Bəxtiyarın vətən sevgisini bizə gətirib.

Tarixin müxtəlif dönəmlərində - istər çar Rusiyası dövründə, istərsə də Sovet rejimi illərində - Azərbaycan dili sıxışdırılıb, yerinə başqa dillər gətirilməyə çalışılıb. Amma xalqımızın ziyalıları, şairləri və maarifpərvər övladları öz dillərinə sahib çıxaraq onu qoruyublar. Məmməd Əmin Rəsulzadənin "Bir kərə yüksələn bayraq bir daha enməz!" dediyi kimi, bir dəfə millіləşən dil də daha heç vaxt yox ola bilməz.

Bu mövzuda Ulu Öndər Heydər Əliyevin ana dilimizə verdiyi dəyəri xüsusi qeyd etmək vacibdir. Onun dilimizlə bağlı bu dərin və aydın fikri çox şeyi izah edir: "Azərbaycan dili bizim milli sərvətimizdir. Hər bir xalq öz ana dilini göz bəbəyi kimi qorumalıdır."

Məhz Heydər Əliyevin təşəbbüsü və qətiyyəti ilə Azərbaycan dili dövlət dili statusunu qazanmış, Konstitusiyada öz əksini tapmışdır. Onun siyasi iradəsi nəticəsində dilimizin rəsmi və ictimai həyatda mövqeyi güclənmiş, inkişafına geniş imkanlar açılmışdır.

Bu gün isə məsuliyyət valideynlərin və müəllimlərin üzərinə düşür. Uşaqların ilk təlim-tərbiyəsi, ilk sözləri ana dilində olmalıdır. Əgər biz uşaq yaşlarından onlara başqa dilin üstünlüyünü aşılayırıqsa, bu, milli kökümüzü baltalamaq deməkdir. Xüsusən düşmən dillərində təhsilə üstünlük verilməsi, həm psixoloji, həm də ideoloji baxımdan böyük zərərlərə yol aça bilər. Ana dilində təhsil alan uşaq özünü daha yaxşı ifadə edir, düşüncə qabiliyyəti geniş olur, mədəniyyətini dərk edir və milli ruhla böyüyür. Əgər uşağımızın şəxsiyyətli, kimlikli və milli ruhlu böyüməsini istəyiriksə, ilk olaraq ona öz dilini sevdirməliyik. Bu sevgi isə ailədə, evdə başlayır. Televizorda, kitabda, məktəbdə davam edir.

Unutmayaq, ana dilinə sahib çıxmaq və onu qorumaq yalnız şairlərin, siyasətçilərin, müəllimlərin yox, hər bir valideynin və vətəndaşın borcudur. Ana dilimiz yaşasın deyə, onu uşaqlarımıza sevdirək. Ona dəyər verək. Çünki dil - millətin ruhudur, ruhsuz bədən necə ölüdürsə, dilsiz millət də elədir.

# “Dənizə yox, zibilliyə getmiş kimiyik” - Bakı Çimərliklərində ekoloji faciə

***Azərbaycandakı çimərliklər əsasən Xəzər dənizi sahilində yerləşir və yay aylarında həm yerli əhali, həm də turistlər üçün istirahət mərkəzi kimi geniş istifadə olunur.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.



## Əsas bölgələr və çimərlik istiqamətləri

Azərbaycanda çimərliklər əsasən Bakı və Abşeron yarımadası, eləcə də Sumqayıt, Lənkəran, Astara və Xaçmaz bölgələrində yerləşir:

1. Bakı və Abşeron:
* Bilgəh - təmiz suyu və sakitliyi ilə seçilir.
* Novxanı - ən çox ziyarət edilən, geniş çimərlik zolağına malik ərazidir.
* Pirşağı - tarixən məşhur istirahət zonasına çevrilib.
* Şüvəlan, Buzovna, Mərdəkan - ailəvi istirahət üçün uyğundur.
* Şıx və Türkan - daha çox kütləvi və gənclər tərəfindən seçilir.
* Zuğulba - ictimai və ödənişli hissələrə bölünür, yaxşı təşkil olunmuşdur.
2. Sumqayıt - şəhər sakinləri üçün əlçatan, lakin bəzi yerlərdə çirklənmə ilə bağlı narazılıqlar mövcuddur.
3. Xaçmaz - Nabran və Dalğalı - meşə ilə sahilin birləşdiyi bölgə, turizm üçün çox əlverişlidir.
4. Lənkəran, Astara - cənubda yerləşən bu bölgələrdə təbii, az dəyişdirilmiş çimərliklər var.



## Çimərlik növləri

* İctimai (pulsuz) çimərliklər - dövlət nəzarətində olan vətəndaşlar üçün açıq ərazilərdir. Təhlükəsizlik, təmizlik və xidmət səviyyəsi bəzən fərqlənə bilər.
* Ödənişli çimərliklər (kommersiya) - xüsusi şəxslər və ya şirkətlər tərəfindən idarə olunur. Giriş haqqı müqabilində əlavə xidmətlər (duş, şezlonq, kafe, wi-fi və s.) təklif olunur.
* Qeyri-rəsmi çimərliklər - bəzi ərazilərdə insanlar dəniz kənarına çıxsa da, oralar rəsmi çimərlik hesab edilmir və təhlükəsizlik tədbirləri zəif olur.

## Təhlükəsizlik və nəzarət

* Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən rəsmi çimərliklərdə xilasedicilər fəaliyyət göstərir.
* Rəsmi çimərliklərdə nişanlama, dərinlik göstəriciləri, xəbərdaredici lövhələr olur.
* Qeyri-rəsmi çimərliklərdə isə suya girmək təhlükəlidir, çünki xilasedici və tibbi xidmət mövcud olmur.

## Ekoloji vəziyyət

* Bəzi sahil zonalarında çirklənmə problemi müşahidə olunur - xüsusilə plastik tullantılar, kanalizasiya suları, və nəzarətsiz tullantılar.
* Dövlət Ekoloji Təhlükəsizlik Xidməti mütəmadi monitorinqlər aparır, lakin bəzi çimərliklərdə təmizliklə bağlı problemlər qalmaqdadır.
* Qeyri-qanuni tikililər və sənaye tullantıları da müəyyən sahələrdə dənizin çirklənməsinə səbəb olur.

## İqlim və mövsüm

* Çimərlik mövsümü Azərbaycanda adətən iyun ayının ortasından sentyabr ayının əvvəlinədək davam edir.
* Havanın temperaturu yayda 30-38°C, dəniz suyunun temperaturu isə 22-28°C arasında dəyişir.

## Son illərdə aparılan işlər

* İctimai çimərliklərin yaradılması təşəbbüsü (Bakı şəhərində bir neçə sahədə).
* Təmizlik və maarifləndirmə aksiyaları, xüsusən könüllülər tərəfindən.
* Sualtı yoxlamalar və sahil zonalarının təhlükəsizliklə təmin edilməsi.
* İnfrastrukturun təkmilləşdirilməsi - duşlar, soyunma kabinələri, tullantı qutuları.

Azərbaycanda Xəzər dənizi sahilində yerləşən çimərliklərin ekoloji vəziyyəti müxtəlifdir. Bəzi çimərliklər təmizliyi, təhlükəsizliyi və infrastrukturu ilə seçilirsə, bəziləri tullantılar, çirkab suları və nəzarətsizlik səbəbilə çirkli və riskli zona hesab olunur. Aşağıda ən təmiz və ən çirkli çimərliklərə dair ümumi rəy və müşahidələrə əsaslanan siyahını təqdim edirəm:

Ən təmiz çimərliklər (2024-cü ilin müşahidələrinə əsasən)

## Bu çimərliklərdə:

* Su keyfiyyəti qənaətbəxşdir.
* Təmizlik və sanitariya xidmətləri mövcuddur.
* FHN tərəfindən nəzarət olunur.
* Tullantıların idarə olunması həyata keçirilir.

## Ən çirkli çimərliklər

Bu çimərliklərdə:
* Sənaye və məişət tullantıları mövcuddur.
* Çirkab suların axıdılması halları müşahidə edilir.
* Təmizlik işləri ya aparılmır, ya da qeyri-müntəzəmdir.
* Su analizlərində normadan artıq bakterioloji çirklənmə qeydə alınıb.



Rəsmi qurumların (2023-2024) hesabatlarından məqamlar:
* Dövlət Ekoloji Təhlükəsizlik Xidməti (DETX) və FHN tərəfindən 70-dən çox çimərlikdə monitorinqlər aparılıb.
* Təxminən 20-ə yaxın ərazidə su nümunələri normadan artıq çirklənmiş hesab olunub.
* Qeyri-rəsmi, nəzarətsiz çimərliklərdə boğulma və infeksiya riski daha yüksəkdir.

FHN-nin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin İctimaiyyətlə əlaqələr və təbliğat şöbəsinin rəisi, daxili xidmət polkovnik-leytenantı Akşin Əlili: ”Yay çimərlik mövsümünə hazırlıq çərçivəsində Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən bir sıra zəruri təhlükəsizlik tədbirləri həyata keçirilmişdir. Belə ki, cari ilin may ayından başlayaraq müvafiq nazirliklər, yerli icra hakimiyyətləri, həmçinin ”Suda xilasetmə Dövlət Xidməti” tərəfindən sahilyanı ərazilərdə monitorinqlər aparılmışdır. Monitorinqlər zamanı çimərlik operatorlarına (yəni çimərlik sahibkarlarına) təhlükəsizlik qaydaları ilə bağlı xüsusi bildirişlər təqdim edilmiş, istifadəyə yararsız və potensial təhlükəli ərazilər müəyyənləşdirilərək müvafiq nişanlar yerləşdirilmişdir.

Nazirliyin nəzarətində olan ictimai çimərliklərdə, o cümlədən İDEA İctimai Birliyinin təşəbbüsü ilə yaradılmış çimərliklərdə dalğıclar vasitəsilə sualtı baxış və təmizləmə işləri aparılmış, vətəndaşların məlumatlandırılması məqsədilə maarifləndirici lövhələr quraşdırılmışdır.

Xidmətin balansında olan xilasedici texnika və avadanlıqlar (dalğıc axtarış sistemləri daxil olmaqla) tam işlək vəziyyətə gətirilmişdir. FHN tərəfindən çimərlik mövsümünün başlanğıcı olan 15 iyun tarixindən etibarən gücləndirilmiş iş rejiminə keçilmişdir.



Fövqəladə Hallar Nazirliyinin ”Kiçik həcmli gəmilərə nəzarət və onların xilasedilməsi Dövlət Xidməti” təkcə Abşeron yarımadasında deyil, həmçinin ölkənin digər bölgələrində - Şimal, Cənub, Muğan bölgələri, Neftçala, Bilgəh, Soğanlıq, Kür sahili (Yevlax rayonu), Şirvan və Sabirabad ərazilərində də dövlət nəzarəti altında olan çimərliklərdə təhlükəsizlik tədbirlərini həyata keçirir. Nazirliyin əməkdaşları həmin çimərliklərdə fəaliyyət göstərir və vətəndaşların suda təhlükəsizliyini təmin edir.

Eyni zamanda qeyd edilməlidir ki, FHN-in çimərliklərin təşkili və idarə olunması üzrə səlahiyyəti yoxdur. Nazirliyin funksiyası yalnız dövlət nəzarətində olan ictimai çimərliklərdə əhalinin təhlükəsizliyinin təmin olunmasından ibarətdir. Ölkə üzrə monitorinqlər nəticəsində 75 ictimai çimərlikdə nazirlik tərəfindən mütəmadi fəaliyyət göstərilir.

Maarifləndirmə istiqamətində isə nazirlik tərəfindən il ərzində davamlı olaraq əhali ilə iş aparılır. Təhsil müəssisələrində, uşaq bağçalarında, səhiyyə ocaqlarında, ictimai yerlərdə suda təhlükəsizlik qaydaları, fövqəladə hallarda davranış, eləcə də yanğın təhlükəsizliyi ilə bağlı maarifləndirici tədbirlər həyata keçirilir. Bundan əlavə, nazirlik nəzarətində olan çimərliklərdə azərbaycan və ingilis dillərində hazırlanmış 11 adda maarifləndirici lövhələr quraşdırılıb. Bu lövhələrdə təhlükəli ərazilər barədə xəbərdarlıq, uşaqları nəzarətsiz buraxmamaq, sərxoş vəziyyətdə suya girməmək, məhdudlaşdırıcı nişanlara əməl etmək və xilasedicilərin tələblərinə riayət olunması ilə bağlı maarifləndirici məzmun yer alır.

*Ardı Səh. 12*

# "Dənizə yox, zibilliyə getmiş kimiyik" - Bakı Çimərliklərində ekoloji facıə

Əvvəli Səh. 11

Yay mövsümündə əhalinin çimərliklərə axınının artması təhlükəsizlik tədbirlərinin gücləndirilməsini zəruri edir. Fövqəladə Hallar Nazirliyinin (FHN) "Suda Xilasetmə Dövlət Xidməti" bu istiqamətdə həm profilaktik, həm operativ, həm də maarifləndirici fəaliyyətləri ilə seçilir.

Nazirlik təkcə nəzarətində olan ictimai çimərliklərdə deyil, sahilyanı ərazilərə hərəkət edən marşrut avtobuslarında da maarifləndirmə işlərini davam etdirir. Avtobuslara təhlükəsizlik qaydalarını əks etdirən stikerlər yapışdırılıb və bu təşəbbüs Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi ilə əməkdaşlıq çərçivəsində həyata keçirilib.

Statistik məlumatlara görə, ötən il 156 nəfər, cari ilin ilk dövründə isə 10 nəfər boğulma təhlükəsi zamanı FHN xilasediciləri tərəfindən xilas edilib. Nazirliyin nəzarətində olan çimərliklərdə isə bu günə qədər ölüm faktı qeydə alınmayıb. Bu rəqəmlər çimərlik seçimində dövlət nəzarətində olan ərazilərə üstünlük verilməsinin vacibliyini göstərir. Belə ki, əgər çimərlikdə xilasedici heyət, xilasetmə texnikası və müvafiq nişanlamalar yoxdursa, bu ərazi təhlükəli hesab olunmalı və istifadədən çəkinilməlidir.

112 qaynar xəttinə daxil olan hər bir çağırış dərhal qiymətləndirilir və dalğıc-axtarış qrupları hadisə yerinə cəlb olunur. Lakin unudulmamalıdır ki, xilasetmə əməliyyatlarında saniyələr belə həyati əhəmiyyət daşıyır. Bu səbəbdən valideynlərə çağırış edilir ki, övladlarını nəzarətsiz, qeyri-rəsmi çimərlik ərazilərinə buraxmasınlar.

Xüsusilə regionlarda suvarma kanalları, çaylar, süni göllər, su anbarları və su arxlarında çimmək halları müşahidə olunur. Bu obyektlər sürətli axın, zəif görünmə və dərinlik kimi təhlükəli xüsusiyyətlərə malik olduğundan son bir ayda 12 nəfərin bu cür yerlərdə həyatını itirdiyi qeyd olunur.

Havanın və küləyin vəziyyəti də çimərlikdə təhlükəsizlik üçün önəmlidir. Belə ki, küləyin sürəti saniyədə 10 metrdən artıq olduqda, yaxud hava qaraldıqdan sonra suya daxil olmaq təhlükəlidir. Xüsusi qeyd edilməlidir ki, 13 yaşadək uşaqlar yalnız valideyn nəzarəti ilə çimərlikdən istifadə etməlidirlər.

Eyni zamanda sərxoş halda suya girmək, təhlükəsizlik nişanlarını pozmaq, suda kobud hərəkətlər etmək, balıq tutmaq və digər qeyri-qanuni fəaliyyətlər suda boğulma riskini artırır.

Yekunda isə vətəndaşlara çağırış olunur ki, istənilən fövqəladə hal baş verdikdə dərhal 112 nömrəsi ilə əlaqə saxlasınlar və unutmasınlar: qaydalar yalnız qanun deyil, həm də vicdan məsələsidir".

**Ekoloq Jurnalistlər Birliyinin sədri, jurnalist-ekoloq Cəmşid Bəxtiyar:** "Plastik tullantıların dənizə atılmasının qarşısının alınması üçün ilk növbədə Xəzər dənizinə birbaşa axıdılan tullantı sularına nəzarət gücləndirilməlidir. Bu problem təkcə plastik tullantılarla məhdudlaşmır. Ümumiyyətlə, çirkab və tullantı sularının təmizlənmədən dənizə axıdılması ətraf mühitin ciddi çirklənməsinə səbəb olur. Vaxtaşırı bu istiqamətdə təd-



birlər görülsə də, problem hələ də aktuallığını qoruyur.

Məsələn, bulvar istiqamətində əvvəllər dənizə axıdılan dörd əsas çıxış mövcud idi. Onların qarşısı müəyyən dərəcədə alınsa da, bu tədbirlər yetərli olmadı. Bu çıxışlar bağlandıqdan sonra güclü yağışlar nəticəsində sahil ərazilərində subasma hallarına rast gəlinmişdir, çünki həmin kanallar həm də yağış sularının axıdılması üçün istifadə edilirdi. Təəssüf ki, bu dəyişikliklər nəticəsində Xəzərə axıdılan çirkab sularının həcmi tam şəkildə azalmayıb.

Problemin effektiv həlli üçün həm infrastruktur səviyyəsində ciddi tədbirlərin görülməsi, həm də ictimai şüurun artırılması vacibdir. Vətəndaşların maarifləndirilməsi ilə yanaşı, onların bu prosesə könüllü və maraqlı şəkildə cəlb olunması təşviq edilməlidir. Məsələn, plastik tullantıların toplanması və təkrar emal üçün qəbul məntəqələrinin yaradılması, bu tullantıların dəyərindən daha yüksək qiymətlə geri alınması təşəbbüsü insanların bu sahədə aktiv iştirakına səbəb ola bilər. Belə tədbirlər sayəsində həm ətraf mühitin çirklənməsinin qarşısı alınar, həm də əhali üçün əlavə gəlir mənbəyi yaranar. Bu, təkcə ölkəmizdə deyil, beynəlxalq səviyyədə də tətbiq olunan və səmərəli nəticələr verən praktikadır.

Qeyd edilməlidir ki, bu kimi layihələrin həyata keçirilməsi üçün vətəndaş cəmiyyəti institutlarının təşəbbüsləri əhəmiyyətlidir. Məsələn, Ekoloji Jurnalistlər Birliyi olaraq bu sahədə daim təşəbbüslər irəli sürülür və müxtəlif layihələr üzərində iş aparılır. Lakin belə layihələrin icrası birbaşa maliyyə resurslarından, xüsusilə də donor təşkilatların qrant dəstəyindən asılıdır. Təəssüf ki, bu istiqamətdə ciddi maneələr və çətinliklər mövcuddur.

Sonda qeyd edilməlidir ki, dəniz mühitinin qorunması üzrə hansı layihələrin və proqramların dövlət səviyyəsində planlaşdırıldığını, onların icra vəziyyətini və məsul qurumları bilavasitə müvafiq dövlət qurumlarından öyrənmək məqsədəuyğundur".

Mövzu ilə bağlı sakinlərin rəylərini də öyrəndik:

**Şəhər sakini Paşa Məmmədov:** "Hər yay dostlarla dənizə getmək adətimizdir, amma son illərdə sahilboyu ərazilərin zibillərlə dolu olması çox narahat edir. Çimərlikdən sonra ayaqlarımıza yapışan plastik və sellofanlar evə kimi bizi izləyir. Hesab edirəm ki, həm yerli bələdiyyələr, həm də insanlar daha məsuliyyətli olmalıdır."

**Şəhər sakini Maxruq Hacıyeva:** "Ailəm ilə Xəzər sahilinə istirahətə getmişdik. Sahildə çoxlu plastik butulkalar, yemək qabları vardı. Uşaqlar rahat oynaya bilmədilər. Gözəllik var, amma baxımsızlıq hər şeyi korlayır".

**Şəhər sakini Nahid Məmmədov:** "Bəzi çimərliklər pulludur, amma yenə də təmizlik problemi var. Pullu çimərlikdə belə duş kabinələri bərbad vəziyyətdə idi. Qaydalara riayət olunmur, ətrafı zibilləyənlərə qarşı nəzarət yoxdur. Məncə, cərimələr tətbiq edilməlidir".

**Şəhər sakini Ramin Sadıxov:** "Problem təkcə vətəndaşların məsuliyyətsizliyi deyil. Bir çox çimərliklərdə zibil qutusu ümumiyyətlə yoxdur. Quraşdırılsa belə, bəzən boşaldılmır. Dövlət orqanları bu məsələyə ciddi yanaşmalıdır".

**Şəhər sakini Aliyə Qarayeva:** "Əslində çimərlik çirkliliyinin arxasında sistemsizlik dayanır. Tullantıların çeşidlənməsi yoxdur, plastiklər təkrar emala yönəldilmir. Maarifləndirmə tədbirləri azdır. Gənclər arasında ekoloji təşəbbüslər artırılsa, müsbət nəticə ola bilər".

**Aidə Qədiməliyeva:** "Bu yay Bilgəh çimərliyinə getdik, bizi təəccübləndirən sahilin təmizliyi oldu. Zibil qutuları kifayət qədər idi, sahil boyu mühafizəçilər də göründürü. Hiss olunurdu ki, təşkilatçılar əraziyə nəzarət edirlər. Belə müsbət dəyişiklikləri görmək sevindiricidir".

**Vəli Qarayev:** "Keçən il Şıx çimərliyində vəziyyətlə bu ilki vəziyyəti müqayisə etsək, böyük fərq var. Artıq nəzarət hiss olunur. Su təmizdir, sahildə təhlükəsizlik işçiləri var və hətta uşaqlar üçün ayrıca zona da ayrılıb. Ailəlikcə istirahət üçün əlverişli məkandır".

Nəqliyyatında Polis İdarəsi) dəniz tullantıları və çirkləndirməyə qarşı gördüyü əsas tədbirlərlə bağlı rəsmi statistika və icmal məlumatlar təqdim olunur:

## DİN tərəfindən həyata keçirilən tədbirlər

* 2022-ci ilin ilk dövründə DİN və ETSN birgə Xəzər dənizinin sahilboyu və çimərlik zonalarında məişət tullantılarının (əsasən plastik) və sənaye çirkliliyinin qarşısını almaq üçün monitorinqlər aparıb və nəticədə 10800 nəfər inzibati tənbeh edilib

* Bərabər həyata keçirilən təmizlik aksiyalarında sahilboyundan 360kq bərk məişət tullantısı və 4200m uzunluğunda sintetik tor yığılaraq səlahiyyətli poliqonlara göndərilib.

* Su obyektlərindəki nəzarət əməliyyatları çərçivəsində kodlanmış:

* 133000m sintetik balıq ovu toru zərərsizləşdirilib,

* 953 nəfər qanunsuz balıqçılıqla bağlı saxlanıb,

* 326 cinayət işi başlanıb .

* Daxili sərhədlərdəki su hövzələrində, o cümlədən Xəzər dənizində sualtı boru kə-



mərləri, naqillərin oğurlanmasına qarşı və sənaye balıqçılığı ilə mübarizə tədbirləri keçirilib

*Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin (DETX) Xəzər dənizinin çirklənməsinə qarşı gördüyü tədbirlər, monitorinqlər və ictimai təşəbbüslər*

## DETX-in ekoloji nəzarət və tullantı ilə mübarizə tədbirləri

1. Plastik tullantıların və dəniz çirkliliyinin azaldılması

* Alternativ qablaşdırma (kağız, tekstil, bioplastika) istehsalının təşviqi və tətbiqi başlanılıb, bu sahədə özəl müəssisələrin sayı artırılıb.

* Qaytarla-reqlamasiya üçün təkrar emal imkanları gücləndirilib; tullantıların təkrar emal potensialı artırılıb və bu məqsədlə yeni emal müəssisələri yaradılıb.

2. Dəniz kənarının təmizlənməsi və ictimai maarifləndirmə




* Beynəlxalq aksiyalarda - "Protect the Caspian Sea" kampaniyası çərçivəsində - 2024-cü ildə 1500 könüllü participacion göstərib və 89 hektar sahədə təxminən 57 ton tullantı toplanıb, Bakı sahilində isə 3 ton tullantı yığılıb.

* UNESCO tərəfindən Xəzər sahillərində yerləşən məktəblər, əyalətlər, ictimai məkanlarda proyektlər çərçivəsində maarifləndirici plakatlar, sosial media yayımı və videolar yayımlanır.

3. Ekoloji monitorinqlər və elmi məlumatların toplanması

* Nazirlik və tərəfdaş qurumlar tərəfindən xüsusi gəmi platformaları ilə ildən dörd dəfə keçirilən monitorinqlər zamanı qazılmış 208 su, zooplankton, bentos və dib çöküntü nümunəsi götürülüb.

* Hidrobioloji tədqiqatlar sayəsində plankton və zoobenton vəziyyəti izlənilir; suyun bioloji və kimyəvi keyfiyyəti haqqında məlumatlar toplanır.

4. Təhsildə təşəbbüslər və gənc nəsildən başlayaraq maarifləndirmə

* Məktəblərdə və ictimai yerlərdə ekokulturun təbliği üçün dərsliklər, bukletlər və elektron materiallar hazırlanmışdır.

* "Be Responsible" və "EUBeachCleanup" kimi tədbirlərdə minlərlə şagird və könüllü iştirak edib.

5. Beynəlxalq əməkdaşlıq və praktik təcrübə mübadiləsi

* Avstriya, Yaponiya, Birləşmiş Krallıq, İsveç, Rumıniya və Latviyadan mütəxəssislərin iştirakı ilə seminar və işçi görüşləri keçirilir.

* G20 səviyyəsində və digər beynəlxalq forumlarda plastik tullantıların qarşısının alınması üzrə milli strategiyalar təqdim edilir.

Daxili İşlər Nazirliyinin Su Nəqliyyatında Polis İdarəsi və Ekologiya Nazirliyi (DETX) birgə həyata keçirdikləri dəniz tullantıları və çirklənmə ilə mübarizə tədbirlərinin statistik göstəriciləri

## Təmizlik aksiyaları və ekoloji monitorinqlər

* 2022-ci ilin iyul ayında keçirilən aksiyada Xəzər dənizi və daxili su hövzələrindən 360kq plastik məişət tullantısı və 4200metr sintetik balıq ovu toru yığılmışdır .

* Eyni tədbirlər zamanı qeyri-qanuni istifadədən alınan 133000metr ov toru, 953 qanunsuz balıqçı saxlanılmış və 326 cinayət işi başlanılmışdır .

## Sanitariya və su keyfiyyətinə dair monitorinqlər (2024)

* Respublika Gigiyena və Epidemiologiya Mərkəzi ilə birgə keçirilən monitorinqlərdə Bakı, Sumqayıt, Lənkəran, Xaçmaz, Astara və Xaçmazda dəniz suyu fiziki-kimyəvi analiz edilərək müəyyən edilmişdir:

* Buzovna, Zumqulba, Mərdəkan, Şüvəlan, Novxanı, Bilgəh, Pirşağı kimi çimərliklər normativlərə uyğun tapılmışdır.

* Şıx, Hövsan, Türkan, Sumqayıt, Nabran, Lənkəran və Astara'sa qədər çimərliklərdə suyun bakterioloji göstəriciləri normadan yuxarı olduğundan istifadəsi vəziyyət qeyri-qənaətbəxş elan edilmişdir .

Bu tədbirlər göstərir ki tullantıların toplanması və təmizlənməsi üzrə konkret işlər görülüb, qanunsuz balıq ovu ilə bağlı ciddi inzibati və cinayət tədbirləri həyata keçirilib, su keyfiyyətinə dair monitorinqlər sistematik aparılır və nəticələr ictimaiyyət üçün açıqlanır.

## Tövsiyələr:

* Rəqəmsal və şəffaf illik hesabatlar yayınlanmalı.

* Tullantı nəzarəti və poliqon xaricində təkrar emal imkanları artırılmalı.

* İctimai maarifləndirici kampaniyalar gücləndirilməlidir.

*Ayşən Vəli*

# Rusiyalı ekspert: Ermənistan Rusiyaya dost olmayan ölkədir

## İqor Korotçenko Paşinyanın Brüssel danışıqları haqqında: Parlament seçkilərində qalib gəlmək üçün baş nazirə Ermənistanın Avropaya inteqrasiyası ideyasını təbliğ etmək vacibdir

***Xəzər Strateji Araşdırmalar İnstitutunun (Rusiya) baş direktoru İqor Korotçenko "Moskva-Baku" portalına müsahibəsində Ermənistanın baş naziri Nikol Paşinyanın Brüsseldə Avropa Komissiyası və Avropa Şurasının rəhbərləri Ursula fon der Leyen və Antonio Kosta ilə apardığı üçtərəfli danışıqları şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***



*- İqor Yuryeviç, Ermənistanın baş naziri Paşinyan Brüsseldə Avropa Komissiyasının rəhbəri fon der Leyen və Avropa Şurasının prezidenti Kosta ilə kifayət qədər əlamətdar*



*görüş keçirib. Üçtərəfli danışıqların yekununda Avropa İttifaqının Ermənistana davamlı dəstəyindən, o cümlədən maliyyə dəstəyindən bəhs edən bəyanat qəbul edilib. Beləliklə, "Global Gateway" strategiyası çərçivəsində Aİ-nin Ermənistana investisiyaları 2,5 milyard avroya çatacaq. Avropa İttifaqının respublikada "müstəqil media"nı gücləndirmək üçün 1,5 milyon avroluq yeni paket ayıracağı da açıqlanıb. Brüssel danışıqlarından sonra Paşinyan Makronu görmək üçün Parisə uçub...*

- Nikol Paşinyanın həm Brüsselə, həm də Parisə səfərinə Ermənistanda daxili siyasi vəziyyətin mürəkkəbləşməsi və Ermənistanın hazırkı baş nazirinin gələn il keçiriləcək parlament seçkiləri öncəsi seçicilərin gözündə siyasi mövqeyini gücləndirmək üçün Avropa İttifaqına stavka edərək onun siyasi və iqtisadi dəstəyini təmin etmək istəyi kontekstində baxmaq lazımdır. Paşinyan həm də rəqiblərinə onu dəstəkləyən nüfuzlu qüvvələrin olduğunu nümayiş etdirir.

Paşinyanın Brüssel danışıqları zamanı qapalı məsləhətləşmələr də aparılıb. Mövzular arasında, görünür, Ermənistan ərazisində region dövlətlərinə qarşı agent şəbəkəsinə çevrilmiş ilk növbədə kəşfiyyat tapşırıqlarını həll edən Aİ missiyasının Ermənistan-Azərbaycan sərhədində fəaliyyətinin genişləndirilməsi olub. Çox güman ki, müzakirələr respublikada öz maraqlarını təşviq etmək üçün Qərb pullarından istifadə edəcək müxtəlif QHT-lərə Aİ-nin dəstəyi ilə bağlı olub. "Müstəqil media"ya dəstək üçün 1,5 milyon avro qəpik-quruşdur, mən hesab edirəm ki, QHT-lərə dəstək üçün ayrılan vəsaitin məbləği ən azı 10 dəfə çoxdur, sadəcə, bu barədə danışmırlar.

Paşinyanın parlament seçkilərində hakimiyyətdə qalmasına və partiyası vasitəsilə parlamentə nəzarət etməyə imkan verəcək nəticə ilə qalib gəlməsi üçün Ermənistanın Avropaya inteqrasiyası ideyasını təbliğ etməsi vacibdir. Brüsselə səfər, Aİ-nin yüksək rütbəli rəsmiləri ilə görüş və onların Ermənistana davamlı dəstəyini elan etmələri Paşinyana seçkiqabağı gözəl mənzərə yaratmağa imkan verəcək, daha sonra Ermənistan vətəndaşlarına vizasız gediş-gəliş, Aİ-yə üzvlük (sonuncu heç vaxt baş verməyəcək, lakin buna baxmayaraq, bu, erməni seçicilərinin müdafiəsini qazanmaq üçün şirnikləndirici vəddir) şəklində bir "kök" göstərəcək. Ermənistanın baş naziri Brüssel səfəri ilə vətəndaşlara verdiyi vədlərlə gözəl mənzərə əldə etməyə çalışır, sonra isə bu mənzərəni mümkün qədər yaymaq niyyətindədir. Biz başa düşürük ki, qlobal geosiyasi oyunda- Rusiya ilə kollektiv Qərbin toqquşmasında Paşinyan Rusiya Federasiyasına qarşı müxalif qüvvələrin tərəfində oynayır.

***- Ermənistan rəsmilərinin İrəvanın Rusiya ilə müttəfiqliyinə yenidən baxmağı planlaşdırmadığı və ikitərəfli münasibətləri inkişaf etdirmək niyyətində olması barədə son zamanlar dəfələrlə səsləndirdiyi bəyanatları xatırlayırıq. Bu, yenə də qarşıdan gələn parlament seçkilərində daha çox səs toplamaq məqsədi daşıyan oyun sayıla bilərmi?***

- Qeyd etmək istərdim ki, eyni fonda Ermənistanın hakim partiyasının rəsmilərinin Moskvaya ünvanladığı Rusiya əleyhinə bədxah bəyanatları, təhdidləri hələ də eşidilir. Ona görə də qulağımıza tökülən "unksiyaya" boyun əyməyə ehtiyac yoxdur. Baş verən hadisələrin mahiyyətini, Paşinyan və komandasının həll etdiyi məqsəd və vəzifələri hər kəs anlayır. Bu, Rusiyaya dost olmayan qüvvədir, Moskva bunu başa düşür. Və təbii ki, Moskvanın narahatlığını nəzərə alsaq, Ermənistanın indiki baş naziri Moskva ilə müttəfiqlikdən və Aİ-yə üzvlükdən əldə etdiyi iqtisadi gəliri itirmək istəmədiyi üçün tarazlıq yaratmağa, taktiki manevr etməyə çalışır. Eyni zamanda, o, daxili siyasi meydanı ən təhlükəli rəqiblərdən təmizləyir. Bu gün görülən hər şeyə bir ildən sonra keçiriləcək parlament seçkiləri prizmasından baxmaq lazımdır.

***- Ermənistanda həbs edilən rusiyalı biznesmen Samvel Karapetyan bildirib ki, o, Paşinyana qarşı fəaliyyət göstərəcək yeni siyasi qüvvə yaradır. Nəzərə alsaq ki, son illər müxalifət indiki baş naziri vəzifəsindən uzaqlaşdıra bilməyib, Karapetyanın bununla bağlı perspektivləri necədir?***

- Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin rəhbərinin dəyişdiyini görürük, indi ona Andranik Simonyan başçılıq edir- o, 100 faiz Paşinyanın kadrıdır. Beləliklə, MTX müəyyən əməliyyat və kəşfiyyat imkanlarına malik alət kimi indi Paşinyanın siyasi rəqiblərinə qarşı işləyəcək. Eyni zamanda Nikol Paşinyanın hərəkətlərinin kifayət qədər ardıcıl olduğunu söyləmək olar. Karapetyanın maliyyə resurslarında və imkanlarında təhlükə görən Paşinyan və komandası problemi həll edir: biznesmenin aktivlərini milliləşdirməklə onun Ermənistanda baş verənlərin daxili prosesinə təsir imkanlarını minimuma endirmək.

Üstəlik, bu və ya digər şəkildə onun həbs müddətinin bu və ya digər əsaslarla uzadılacağı göz qabağındadır. Və əgər nə vaxtsa Karapetyan Ermənistanda azad olunsa, ilk növbədə o, qaçırılacaq, əmlakının müsadirə edilməsi ilə bağlı maddələr düşünüləcək.

***- Paşinyan fəal şəkildə can atdığı məsələyə- katolikosu aradan qaldırmağa nail olacaqmı?***

- Hələlik bunu demək mümkün deyil. Bu, kifayət qədər qeyri-adi vəziyyətdir, ölkə lideri ilə dini iyerarxiya arasında qarşıdurma olduğu zaman bu artıq münaqişədir. Müasir siyasi tarixdə belə bir şey xatırlamıram. Əgər Paşinyan bu şəkildə Erməni Apostol Kilsəsinə hücum etsə, onda özünü əmin hiss etdiyi aydın olur, əks halda bunu etməzdi. Ehtimal etmək olar ki, Ermənistan Milli Təhlükəsizlik Xidməti Ermənistan Apostol Kilsəsinin rəhbərliyinə qarşı əməliyyat-kəşfiyyat və əməliyyat-texniki tədbirlər həyata keçirir ki, bu da hazırkı baş nazirə ÜEK-da gedən proseslərə nəzarət etmək və bütün planlardan xəbərdar olmaq imkanı verir. Görünür, MTX agentləri kilsəyə soxulub və vəziyyəti içəridən işıqlandırırlar. Paşinyan indi "demokratik" diktator ruhunda hərəkət edir, o, yumşaq əlcəklərlə ona qarşı çıxmaq cəhdlərini boğur.

*Tərcümə - Elçin Bayramlı*

# ELAN

*Hörmətli "Bakı-Pivə" ASC səhmdarı,*

"Bakı-Pivə" Açıq Səhmdar Cəmiyyəti Sizə bildirir ki, 23 iyul 2025-ci il tarixində saat 10:00-da keçirilməsi nəzərdə tutulmuş Səhmdarların növbədənkənar ümumi yığıncağının gündəliyinə yeni məsələlərin əlavə edilməsi zərurəti yarandığına görə təxirə salınması barədə qərar qəbul edilmişdir. İclasın təxirə salınması və yenidən qanunla müəyyən edilmiş müddətdə yeni iclasın vaxtının müəyyən edilməsi, bütün səhmdarların əlavə olunan məsələlər barədə tam və vaxtında məlumatlandırılmasını, habelə qəbul ediləcək qərarların keyfiyyətinin və hüquqi əsaslılığının təmin edilməsi məqsədi daşıyır.

Bakı-Pivə" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin tələblərinə uyğun olaraq Sizin nəzərinizə çatdırır ki, 18.08.2025-ci il tarixində saat 10:00-da AZ0100, Abşeron rayonu, Xırdalan şəhəri, Şamaxı Şossesi (Xırdalan), ev 1 ünvanında Cəmiyyətin Səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Bakı-Pivə" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinə uyğun olaraq səsvermənin qiyabi şəkildə keçirilməsi nəzərdə tutulmuşdur. Səhmdarlarının növbədənkənar ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxil edilir :

1. Növbədənkənar ümumi yığıncağın sədri və katibin seçilməsi.
2. Hesablama komissiyasının yeni üzvlərinin seçilməsi.
3. Cəmiyyətin aidiyyəti şəxs olan "Carlsberg Azerbaijan" MMC ilə bağlanılması nəzərdə tutulan (alqı-satqı) əqdin təsdiq edilməsi.
4. Cəmiyyətin Müşahidə Şurasına yeni üzvlərin seçilməsi.

Növbədənkənar ümumi yığıncağın gündəliyinə çıxarılan məsələlər üzrə müvafiq materiallar və səsvermə bülleteni 11.07.2025-ci il tarixindən etibarən hər bir səhmdara gündəlikdəki məsələlərə dair materiallar və məlumatlarla tanış ola bilməsi üçün bildirişə əlavə olunmuş qoşma şəklində göndəriləcəkdir.

Hər bir səhmdar növbədənkənar ümumi yığıncağın gündəliyində olan məsələyə münasibətini (bülleteni çap edərək müvafiq qaydada doldurarq) dəqiq və şərtsiz bildirməklə (lehinə, əleyhinə, bitərəf) iştirak edə bilər (gündəlikdəki hər bir məsələyə ayrı-ayrılıqda münasibət bildirməklə) və imzası qanunvericilikdə müəyyən edilmiş qaydada (notarial və s.) təsdiq edilmək, həmçinin şəxsiyyətinizi təsdiq edən sənədin surətini təqdim etmək (bülletenə əlavə etmək) şərti ilə qapalı zərfdə AZ0100, Abşeron rayonu, Xırdalan şəhəri, Şamaxı Şossesi (Xırdalan), ev 1 poçt ünvanına bülletenlərin qəbulu üçün nəzərdə tutulmuş son tarix olan 17.08.2025-ci il tarixədək göndərməklə səsvermədə qiyabi iştirak edə bilər. Bülletenlər, onların qəbulu üçün nəzərdə tutulmuş müddətdə təqdimetmişlər, qiyabi şəkildə keçirilmiş növbədənkənar yığıncaqda iştirak etmiş hesab edilirlər.

Yuxarıda qeyd olunan qaydada təqdim edilmiş zərflərin açılması, verilmiş səslərin sayılması növbədənkənar ümumi yığıncağın keçirildiyi gün həyata keçiriləcəkdir.

***

Ağstafa rayon YAP təşkilatı tərəfindən 01.04.2000 - ci il tarixində Bayramov İlqar Aydın oğluna verilən 038153 nömrəli üzvlük vəsiqəsi itirildiyi üçün etibarsız sayılır.

Ağstafa rayon YAP təşkilatı tərəfindən 01.10.2001-ci il tarixində İbrahimov Bəxtiyar İbrahim oğluna verilən 200396 nömrəli üzvlük vəsiqəsi itirildiyi üçün etibarsız sayılır.

Ağstafa rayon YAP təşkilatı tərəfindən 07.03.2023-cü il tarixində Şabanov Rayət Məhəmməd oğluna verilən 840821 nömrəli üzvlük vəsiqəsi itirildiyi üçün etibarsız sayılır.

# Fransanın yeni müstəqillik oyunu

## *Paris Yeni Kaledoniyaya separatizmlə mübarizə aparmaq üçün maksimum muxtariyyət veriləcək*

***Parisin ətrafı Buqevalda on gün davam edən danışıqlardan sonra gələn ilin əvvəlində ”Yeni Kaledoniya Dövləti”nin yaradılmasını nəzərdə tutan razılaşma əldə edilib. Möhtəşəm adına baxmayaraq, söhbət yalnız Fransanın bu dənizaşırı ərazisinin muxtariyyətinin genişləndirilməsindən gedir, onun tam müstəqilliyindən deyil. Razılaşma 2024-cü ildə Yeni Kaledoniyada bir neçə insanın ölümünə səbəb olan aylarla davam edən etirazların nəticəsi idi. Yerli əhali, Kanaklar, materik Fransadan gələnlərə yerli seçkilərdə səs vermək hüququ verən qanunun qəbul edilməsinə qarşı üsyan qaldırıblar.***



Danışıqları Yeni Kaledoniyada hökumət və əsas siyasi qüvvələrin nümayəndələri aparıblar. Ötən əsrin ortalarından Fransanın idarəçiliyinə qatdığı bu arxipelaq Avstraliyanın şimal-şərqində, Sakit okeanda yerləşir. Şənbə günü, iyulun 12-də Fransa prezidenti Emmanuel Makronun ofisi razılaşmanı elan edib. Danışıq iştirakçıları Yelisey sarayında Makron tərəfindən qəbul edilib. Sazişdən çıxarışlar Yeni Kaledoniyanın Nouvelle-Cal?donie La Premi?re kanalının saytında dərc olunub. Onların fikrincə, Yeni Kaledoniya müstəqil şəkildə xarici siyasəti həyata keçirmək hüququ əldə edəcək (təbii ki, Fransanın maraqlarını nəzərə alaraq) və beynəlxalq təşkilatlara üzv ola biləcək. Bundan əlavə, ”dövlət” ənənəvi olaraq Fransa hökuməti tərəfindən tənzimlənən təhlükəsizlik və ədalət siyasətinin hazırlanması prosesində daha fəal iştirak edəcək. Konqresə (Yeni Kaledoniyanın qanunverici orqanı) seçki prosesinə yenidən baxılması istisna edilmir: Yeni Kaledoniyada doğulmuş və ya orada ən azı 15 il yaşamış şəxslər səsvermə hüququna malik olacaqlar. Bu ərazinin himni, bayrağı, şüarı və digər dövlət rəmzləri də dəyişdirilə bilər. Ehtimal olunur ki, Fransa Konstitusiyasında ”Yeni Kaledoniya Dövləti” bölməsi olacaq, Yeni Kaledoniyalıların isə öz vətəndaşlığı olacaq.

Müqavilənin özü çərçivə xarakteri daşıyır. Onun bəndləri üzrə yekun razılaşma sürətli proses deyil. O, Fransa parlamentinin təsdiqi ilə başa çatacaq. Və yalnız bundan sonra Yeni Kaledoniyalılar böyük ehtimalla 2026-cı ildə baş tutacaq referendumda razılaşmaya öz sözünü deyəcəklər. Yerli sakinlərin Fransaya münasibətinə səs vermələri ilk dəfə deyil. Son on ildə Yeni Kaledoniyanın müstəqilliyi ilə bağlı artıq üç referendum keçirilib: 2018, 2020 və 2021-ci illərdə. Onlar 1998-ci ildə imzalanmış və Fransadan ayrılma tələbi ilə Kanak etirazlarına son qoymuş sayılan Noumea sazişi çərçivəsində baş tutub.

Buna əsasən, ərazinin statusu ilə bağlı birdən üçə qədər səsvermə keçirmək mümkün idi. Müstəqillik tərəfdarları referendumların heç birində səs çoxluğu əldə edə bilməyiblər. Kanaklar Yeni Kaledoniya əhalisinin təxminən 40%-ni təşkil edir. Lakin onlar heç vaxt Fransadan ayrılmaq üçün həmrəylik nümayiş etdirməyiblər. Müstəmləkə asılılığından qurtulduqdan sonra çiçəklənməmiş bir çox Sakit okean dövlətlərinin nümunəsi öz təsirini göstərib.

Bəlkə də mərkəzi orqanlar olmasaydı, müstəqillik mövzusu ümumiyyətlə ortadan qalxardı. Lakin Paris səhv etdi. Yeni Kaledoniyanın statusuna yenidən baxılması üçün yeni tələblər 2024-cü ildə 12 nəfərin ölümü ilə nəticələnən kütləvi etirazlardan sonra ortaya çıxdı. Onlara Fransa hökumətinin yerli seçkilərin keçirilməsi qaydalarına dəyişiklik etmək qərarı səbəb olub. Yeni Kaledoniyada 10 ildən çox yaşamaq şərti ilə yerli olmayan sakinlərə səsvermə hüququ verilirdi. Bu, minlərlə insana - əsasən Fransadan olan mühacirlərə yerli hakimiyyət orqanlarını seçmək imkanı verilsə, yerli əhalinin mənafeyinin lazımi səviyyədə qorunmayacağından qorxaraq bir çox kanakları qəzəbləndirdi. Axı Yeni Kaledoniyada avropalıların sayı durmadan artır. Bir çox fransız təqaüdçüsü ora köçür. Buna Avropanın cənubundakı kimi iqlim şəraiti və nisbətən ucuzluğu kömək edir. Beləliklə, saziş müstəqillik tərəfdarları ilə Fransanın ”qanadında” qalmaq istəyənlər arasında bir növ kompromis oldu. Bundan əlavə, bu, Parisin özü üçün də faydalıdır, çünki etirazları ciddi ziyana (təxminən 2 milyard avro) səbəb olan və Yeni Kaledoniyada sənayenin işini pozan müstəqillik tərəfdarlarının narazılığını müvəqqəti olaraq da olsa, sakitləşdirəcək.

Makronun arxipelaqdakı vəziyyəti birtəhər həll etmək əzminə təsir edən mühüm cəhət orada qiymətli faydalı qazıntı yataqlarının, xüsusən də nikelin olmasıdır. Kimya sənayesində, tibbdə və elektrik avadanlıqlarının istehsalında istifadə olunur. Yeni Kaledoniyada bu metalın dünya ehtiyatlarının təxminən 11%-i var. Sazişin bir hissəsi olaraq, Fransa arxipelaqa iqtisadi və maliyyə yardımı göstərməyi öhdəsinə götürdü ki, bu da əsasən dağ-mədən sənayesinin inkişafına yönələcək.

### Kanaklar Fransada qalacaq

Fransanın Yeni Kaledoniyasında 2024-cü ildən bəri yaxşılaşmayan partlayıcı vəziyyətin sülh yolu ilə həlli üçün hər cür şans var. Yerli kanakların müstəqillik aşiqləri ilə fransız ”sadiqləri” razılığa gəliblər. Sənəd iyulun 12-də Paris yaxınlığındakı Buqivalda Fransa prezidenti Emmanuel Makronun barışıq üçün ”son şans” kimi başlatdığı on günlük gecə-gündüz danışıqlardan sonra imzalanıb. Bu, müzakirənin bütün iştirakçılarından güzəşt tələb edirdi. Hava 2024-cü ilin mayında 14 nəfərin həyatına son qoyan iğtişaşlara bənzər yeni iğtişaşlar qorxusu ilə dolub. Amma bu dəfə keçmiş barışmaz rəqiblər riskə getməyə və razılığa gəlməyə qərar veriblər.

Bir illik gərginlik, zorakılıq alovları, uğursuz təşəbbüslər və hətta silahlı mübarizə çağırışlarından sonra Fransa və Yeni Kaledoniyanın siyasi qüvvələri razılığa gəlib. Müqavilə rəsmi olaraq arxipelaqı Fransanın tərkibində saxlayır və eyni zamanda onu ayrıca dövlət edir. Söhbət ”Fransa Respublikasının tərkibində dövlət” kimi rəsmiləşdirilmiş yeni statusdan, konstitusiyada təsbit olunmuş öz vətəndaşlığı, bayrağı, himni və siyasi subyektivlik hüququndan gedir.



Prezident Makron əldə olunan razılaşmanı ”tarixi” adlandırıb. ”Yeni Kaledoniya dövləti respublikanın bir hissəsi kimi etimada bahisdir” deyə o, sosial mediada yazıb. Son aylar arxipelaqdakı vəziyyətlə yaxından iştirak edən xarici işlər naziri Manuel Valls ”cəsarət və məsuliyyət seçimini” alqışlayıb. Hətta barrikadaların əks tərəflərində olanlar - müstəqillik tərəfdarı Viktor Tutuqoro və ”Fransa sadiq” Nikolas Metzdorf - əldə edilən kompromis ”balanslı” və ”ağlabatan” olduğunu etiraf ediblər. Sənədə əsasən, Fransa konstitusiyasında yeni status - ”Yeni Kaledoniya dövləti” təsbit ediləcək. O, əsas qanunu, milli kimliyi və özünün dövlət qurumları sistemini alacaq. Eyni zamanda, fransızlar vurğulayırlar ki, söhbət 100% müstəqillikdən getmir - Yeni Kaledoniya ”milli birliyin” tərkibində qalacaq. Bununla belə, bir çox mühüm funksiyalar, o cümlədən beynəlxalq əlaqələr onun səlahiyyətlərinə aid olacaq. Metropoliyanın yurisdiksiyasında yalnız müdafiə və təhlükəsizlik sahəsi qalacaq.

### Əsas simvolik element - Kaledoniya vətəndaşlığı

Yeni Kaledoniya əhalisinin 41%-ni təşkil edən kanaklar adalara və onların mineral ehtiyatlarına nəzarətin (dünya nikelinin təxminən 20-30%-ni ölkə istehsal edir) tək onların əlində qalmasını tələb edərək üsyan qaldırdılar. İndi vətəndaşlıq ciddi meyarlara görə veriləcək: qan hüququ və torpaq hüququ ilə, kaledoniyalı ilə nikah nəticəsində və adalarda yaşayış müddətindən asılı olaraq - ən azı 10-15 il. Vətəndaşlığın həmişə ikili olması vacibdir. Fransız dilindən imtina avtomatik olaraq Kaledoniyanın itirilməsinə səbəb olacaq. Beləliklə, Fransa həm adalar üzərində nəzarəti saxlayır, həm də Kaledoniyalı həmvətənlərinin unikallığını tanıyır.

”Kaledon Dəyərləri Xartiyası” və ”Vətəndaşlıq Məcəlləsi” qəbul ediləcək. 2026-cı ildən isə ölkədə yenilənmiş qaydalara əsasən seçilən yeni Konqres fəaliyyətə başlayacaq. O dövrdə iğtişaşların detonatoruna çevrilən seçki məsələsi idi. 2024-cü ilin yazında Parisin elektoratı genişləndirmək cəhdi kütləvi etirazlara səbəb oldu: müstəqillik tərəfdarları bunu yerli əhali üçün təhlükə kimi gördülər. İndi kompromis əldə olunub: təxminən 2026-cı ilin fevralına planlaşdırılan referendumda, sadalanan vətəndaşlıq meyarlarına cavab verən yeni seçicilər əlavə edilməklə, əvvəlki referendumlarda səs vermiş eyni insanlar səsvermə hüququna malik olacaqlar. 2026-cı il seçkilərindən sonra yalnız Kaledoniya dövlətinin vətəndaşları səsvermə hüququna malik olacaq. Bu, tərəflərin əvvəlki tələblərindən heç birini ləğv etmədən, lakin onları yeni hüquqi çərçivəyə daxil etməklə vəziyyəti sakitləşdirməlidir. ”Sadiqlərin” liderlərindən biri Sonia Backesin dediyi kimi, ”kompromis heç kimi tam qane etməyəcək, lakin mən əminəm ki, bu, bizə zorakılıq və qeyri-müəyyənlik spiralından xilas olmaq şansı verəcək”.

İqtisadi təməl olmadan yeni siyasi quruluş mümkün deyil. Bu, yerli büdcələrin təkmilləşdirilməsi, sosial sistemlərin restrukturizasiyası, borcların azaldılması və ən əsası ”iqtisadiyyatın yenidən işə salınması və şaxələndirilməsi” deməkdir. Yeni Kaledoniya və bütövlükdə Fransa üçün strateji resurs olan nikelə xüsusi diqqət yetirilir. Avropanın sənaye suverenliyi üzrə uzunmüddətli strategiyanın bir hissəsi olaraq adada yeni müəssisələrin tikilməsi planlaşdırılır.

Anlamaq lazımdır ki, Buqivalda qəbul edilən sənəd yekun razılaşma deyil, tərəflərin siyasi öhdəliyi, niyyət bəyannaməsidir. Onu imzalayanlar ”müqaviləni hazırkı formada təqdim etmək və müdafiə etmək” öhdəliyini götürürlər, lakin son söz Kaledoniya cəmiyyətində qalır. Qarşıdakı həftələrdə arxipelaqda siyasi partiya və təşkilatların, o cümlədən müstəqillik tərəfdarlarının maraqlarını təmsil edən Kanak hərəkatı FLNKS-in qurultayları keçiriləcək. Növbəti addım Fransa konstitusiyasının dəyişdirilməsi olacaq - dəyişikliklərin payızda parlamentin Versalda keçiriləcək iclasında qəbul ediləcəyi gözlənilir. Yalnız bundan sonra Kaledoniyada yeni vəziyyəti nəhayət möhkəmləndirəcək referendum mümkündür. Amma bu artıq çoxdur. Hazırkı mərhələdə ”etimada mərc edən” Emmanuel Makron üçün razılaşma siyasi böhrandan çıxmaq üçün nadir şansdır. Kaledoniya üçün bu, artıq Parisin ”müstəmləkəsi” və ya girovu olmamaq, həm də dünya güclərindən asılı olan başqa bir yoxsul ada mikrodövlətinə çevrilməmək üçün bir fürsətdir.

Fransa demək olar ki, bütün imtiyazları yerli əhaliyə təhvil verib, eyni zamanda əksər məsuliyyətləri özündə saxlayır. Bunun sayəsində Yeni Kaledoniya unikal statusun astanasındadır: müstəqil dövlət və eyni zamanda başqa bir dövlətin bir hissəsi olmaq. Həm Fransa ilə birlikdə, həm də özü. Bu, müstəqillik və birlik arasında, Kanakın öz müqəddəratını təyinetmə ilə ümumfransız tarixi arasında çətin bir tarazlıq aktıdır. Amma bəlkə də belə bir model XXI əsrin bir çox çoxmilləti və postkolonial cəmiyyətlərinin gələcəyi üçün uğurlu variantlardan biridir.

**V.VƏLİYEV**

# Niyə ən çox onları GMO-laşdırırlar?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi " istiqaməti çərçivəsində hazırlanıb*

***GMO - yəni genetik modifikasiya olunmuş məhsullar gen mühəndisliyi üsullarından istifadə edərək laboratoriya şəraitində DNT-si dəyişdirilmiş bitkilər, heyvanlar və ya mikroorqanizmlər üçün ümumi termindir. Bu dəyişikliklərin bitkiləri zərərvericilərə və ya xəstəliklərə qarşı daha davamlı etmək, məhsul məhsuldarlığını artırmaq və ya onların qida dəyərini zənginləşdirmək kimi məqsədlər üçün edildiyi iddia edilir.***












Dünyada ən çox GMO-ya məruz qoyulan qidalar soya və qarğıdalıdır. Bu məhsullar qlobal GMO məhsul istehsalının böyük bir hissəsini təşkil edir. GMO texnologiyası sayəsində bitkinin xəstəliklərə, zərərvericilərə, iqlim dəyişikliklərinə davamlı formaları yaradılır. Lakin bu istiqamətdə aparılan araşdırmalar da deyir ki GMO insan orqanizminin DNT-sini pozmaq iqtidarındadır. GMO miomüxtəlifliyin azalmasında əsas təhlükələrdən biridir, çünki GMO bitkilər yerli sortları sıradan çıxarır. GMO toxumları patentlidir və fermerlər toxumu özləri çoxalda bilmirlər, beləcə hər il toxum almaq məcburiyyətində qalırlar.

Bu gün qlobal soya istehsalının böyük bir hissəsi - 83%-i GMO-lardan istifadə etməklə yetişdirilir. Bunun bir neçə elmi, iqtisadi və kənd təsərrüfatı ilə əlaqəli səbəbi var. Herbisidlərə davamlılıq bu səbəblərdən biridir. Herbisidlər kənd təsərrüfatında bitkiləri yad təsirlərdən qorumaq üçün istifadə edilən kimyəvi dərmanlar qrupudur. Alaq otlarına qarşı mübarizə aparmaq məqsədi ilə istifadə edilən bütün kimyəvi maddələr ümumilikdə herbisid olaraq adlanır. Tarlaya alaq otlarını öldürmək üçün dərmanlar səpilsə də, GMO soya bu dərmandan zərər görmür. Dərman alaq otlarını məhv edir, amma soya bitkisi sağlam qalır. Bu da məhsuldarlığı artırır və işçi gücünü azaldır.

İddialara görə GMO soya növlərində yağın tərkibi dəyişdirilərək trans-yağlar azaldılır, sağlamlıq üçün daha faydalı tərkib əldə edilir. Bu növ soya əsasən qida sənayesində istifadə edilir, yağ, süd əvəzediciləri, emal olunmuş qidalar üçün sərf edilir. GMO soya quraqlıq, şoranlıq, soyuq və torpaq keyfiyyəti kimi faktorlarla daha yaxşı mübarizə aparır. Bu da Afrika və Asiyanın bəzi bölgələrində soyanın becərilməsini mümkün edir.

Ən çox GMO-ya məruz qoyulmuş bitkilər sırasında ikinci yeri qarğıdalı tutur. Onun genetik modifikasiyası əsasən məhsuldarlığı artırmaq, zərərvericilərə qarşı davamlılıq yaratmaq və sənaye ehtiyaclarını qarşılamaq məqsədi daşıyır. Qlobal qarğıdalı istehsalının təxminən 90%-i GMO-dur, lakin qeyri-rəsmi məlumatalara görə bu rəqəm 99 % nisbətindədir.

Qarğıdalı bitkisi üçün ən böyük təhlükə qarğıdalı qurdu (corn borer) və digər zərərvericilərdir. Müasir qarğıdalı növləri "Bacillus thuringiensis" (Bt) adlı bakteriyadan götürülmüş genlə modifikasiya olunur. Bu gen qarğıdalıya özünü qoruma qabiliyyəti verir, zərərverici onu yedikdə ölür. GMO qarğıdalı herbisidlərə, xüsusilə glifosata qarşı dözümlü olur. Qarğıdalı sahələrinə alaq otlarının öldürülməsi üçün dərman vurulur, otlar məhv olur, amma dərman qarğıdalıya ziyan vurmur.




GMO texnologiyası ilə qarğıdalı növləri quraqlığa dözümlü, torpaqdakı şoranlığa davamlı, daha soyuq və daha isti havalara uyğunlaşır, beləcə iqlimi sərt olan ölkələrdə qarğıdalının becərilməsini mümkün edir. GMO qarğıdalı ilə bağlı qlobal ictimaiyyəti narahat edən əsas problem genetik tərkibin eyni olmasıdır. Daha açıq ifadə etsək, monokultura riski var, yəni GMO sortları geniş ərazilərdə eyni genetik tərkiblə becərilir, bu isə xəstəliklərə qarşı zəiflik yaratma ehtimalını ortaya çıxarır. Üstəlik toxumların patentləşdirilməsi də narahatlıqlardan biridir, GMO qarğıdalı toxumları fermer tərəfindən çoxaldıla bilmir, fermerlər hər il yenidən toxum almağa məcbur qalır. Ən çox GMO qarğıdalı becərilən ölkələr Amerika, Braziliya, Argentina, Cənubi Afrika, Kanadadır. Amerikada qarğıdalının 90%-dən çoxu GMO növlərdir.

Bu gün kənd təsərrüfatında yetişdirilən bir çox meyvə-tərəvəz - pomidor, kartof, düyü, buğda, balqabaq, günəbaxan, tütün və şəkər çuğunduru kimi digər məhsullar da GMO-lardan istifadə etməklə istehsal olunur. Bu qidaların GMO-lardan istifadə edərək becərilməsinin əsas səbəbləri arasında məhsuldarlığın artırılması, zərərvericilərə və herbisidlərə qarşı müqavimətin təmin edilməsi və xərclərin azaldılması daxildir.

Azərbaycanda GMO məhsulların, o cümlədən qarğıdalının istehsalı və idxalı qanunla məhdudlaşdırılıb. Amma ekspertlər hesab edir ki, qeyri-rəsmi yollarla bəzi GMO qarğıdalı növləri həm toxum, həm də məhsul kimi ölkəyə daxil olur. Heyvan yemi kimi istifadə olunan qarğıdalının da bir hissəsinin idxal mənbəyi GMO ölkələri olduğu üçün ölkəmizdə GMO məhsul istifadəsi istisna edilmir.

"Qida təhlükəsizliyi haqqında" Qanunda genetik modifikasiya olunmuş məhsullarla bağlı mühüm müddəalar yer alır. Qanuna görə insan istehlakı üçün olan GMO məhsullarının Azərbaycan ərazisində istifadəsi məhduddur, GMO tərkibli məhsullar yalnız xüsusi icazə və qeydiyyat əsasında dövriyyəyə buraxıla bilər. Həmçinin belə məhsullar etiketlənməli və tərkibində GMO olduğu açıq şəkildə göstərilməlidir.

Soya və qarğıdalı ən çox genetik modifikasiayaya məruz qalan bitkilərdir. Onların GMO-laşdırılmasının səbəbləri təkcə bioloji yox, həm də iqtisadi, sənaye və strateji faktorlarla əlaqəlidir. Hər iki bitki qlobal miqyasda ən çox istifadə edilən məhsuldur, çünki hər ikisi həm heyvan yemi kimi, həm bitki yağı kimi, həm emal olunmuş qida kimi (soya lecitini, süd əvəzediciləri, nişasta, sirop, un), həm bioyanacaq kimi, həm kosmetik məhsul kimi, həm də qida kimi istifadə edilir.

Hər iki bitkinin GMO-laşdırılması həm insanlar, həm də sənaye məqsədləri üçün optimal variantdır. Soya və qarğıdalının genomları sadədir, laborator şəraitdə transformasiyası, yəni gen əlavə olunması elmi və texniki baxımdan daha rahatdır. Yəni, GMO texnologiyasına uyğun genetik quruluşa malik olmaları modifikasıya olunmalarına şərait yaradır.



***Lalə Mehralı***

# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Nağdsız ödənişlər xərcləmə vərdişinə necə təsir göstərir?



*İQTİSADÇI AÇIQLADI*

**“Nağdsız ödənişlər müasir dövrdə insanların gündəlik maliyyə davranışlarına fərqli təsir göstərməkdədir. Bəzi vətəndaşlar bu ödəniş formasını qənaətcil hesab edir və şəxsi büdcələrini daha səmərəli idarə etmək baxımından üstün tutur. Bu yanaşmanın əsas üstünlüklərindən biri də xərclərin izlənilə bilməsi və uzunmüddətli maliyyə hesabatlarının aparılmasının mümkünlüyüdür ki, bu da şəffaflığın təmin olunmasına səbəb olur”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Eyyub Kərimli deyib.**

Eyyub Kərimli sözlərinə belə davam edib: ”Digər tərəfdən, bəzi insanlar nağdsız ödənişlərin fiziki pulun əl altında olmaması səbəbindən daha sərbəst və nəzarətsiz xərclərə səbəb olduğunu düşünürlər. Bu fikir fərdi maliyyə davranışlarının psixoloji aspektləri ilə bağlıdır.

Azərbaycan kontekstində isə qeyd olunmalıdır ki, nağdsız ödənişlərin bir sıra real üstünlükləri vardır. Xüsusilə bəzi kommersiya strukturları bu cür ödənişlərə görə vətəndaşlara endirimlər və ya bonuslar təqdim edir. Həmçinin, təhlükəsizlik baxımından da nağdsız ödənişlər daha etibarlı sayılır. Pul vəsaitləri bank hesablarında saxlanılır, bəzi hallarda bu hesablar üzrə əlavə gəlirlər və faizlər də hesablanır ki, bu da əlavə motivasiya yaradır.

Hazırda ölkədə 2 milyona yaxın aktiv kart mövcuddur və bu göstərici nağdsız ödənişlərin geniş yayılmasını təsdiq edir. Beləliklə, əhalinin əhəmiyyətli bir hissəsi vaxt qənaəti, təhlükəsizlik və hesabatlılıq baxımından nağdsız ödənişlərə üstünlük verir”.

***Ayşən Vəli***

# Bu gündən leysan yağacaq, dolu düşəcək - XƏBƏRDARLIQ

İyulun 16-19-da əsasən gündüz saatlarında bəzi dağlıq və dağətəyi rayonlarda qısamüddətli leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, yağan yağışlar nəticəsində bəzi dağ çaylarında sululuğun artacağı ehtimalı var.



# “Yaşlılara münasibət özümüzlə olan münasibətimizin güzgüsüdür”

”Ətrafımızdakı yaşlı insanları göz önünə gətirdikdə görürük ki, kitabın müəllifi sanki illərlə onlarla birgə yaşamış, onların gündəlik həyatlarını, hisslərini, düşüncələrini dərindən müşahidə etmişdir. Obrazlar o qədər dəqiq və canlı təsvir olunub ki, sanki bu insanları şəxsən tanıyırıq. Müəllifin müşahidə qabiliyyəti, empatiya bacarığı və yaşlı nəslə olan duyğusal bağlılığı oxucuya da sirayət edir. Bu cür obrazlar yalnız uzaqdan baxmaqla deyil, uzun müddət birgə yaşamaqla, hər gün onların dünyasına bir az da yaxınlaşmaqla yaradıla bilər”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib.

Onun sözlərinə görə, bəzən insanlar müraciət edirlər, deyirlər: ”Aytən xanım, artıq bacarmıram. Evdə yoldaşımla yola getmirəm, anamın təzyiqi qalxır, çox üzülürəm”. Belə situasiyalarda insan bir tərəfdən oğul, digər tərəfdən ər kimi iki fərqli kimliyin arasında qalıb psixoloji gərginlik yaşayır. Bu cür daxili ziddiyyətlər əslində ailə strukturlarının və münasibətlər sisteminin nə qədər həssas və mürəkkəb olduğunu göstərir: ”Uşaqlıqda valideynlərimizin arxasınca getmək, onların bir yerə getməsinə etiraz etmək, arxalarından ağlamaq kimi davranışlar sərgiləyirdik. İndi isə həyat sanki bir bumeranq kimi öz rolunu dəyişir - bu dəfə biz öz ailəmizlə harasa getmək istəyirik və valideynlərimiz bizimlə getmək istəyirlər. Bu istək bizə bəzən yük kimi görünür. Lakin dönüb baxırıq ki, bizim öz övladlarımız da arxamızca gəlmək istəyir və biz onları qəlb rahatlığı ilə aparırıq.



Bəzən uşaqlar deyirlər: ”Nənəm ağlayırdı, mən də onun ətəyindən tutub apardım”. Bu cür müşahidələr uşaqların yaddaşında dərin iz buraxır. Vaxtilə nənəsini, babasını özü ilə aparmayan və bu qərarı uşaq ağlı ilə verən bir uşaq, böyüyəndə bu davranışa görə özünü günahkar hiss edə bilər. Bu isə onlarda uzunmüddətli psixoloji narahatlıq - təşviş pozuntusu, güclü günahkarlıq duyğusu və özünütənqid kimi nəticələr doğura bilər. İnsan bu duyğunu illərlə içində daşıyır, bəzən isə ona sözlə belə ifadə verə bilmir.

Qocalığın yalnızlığı, müasir dövrdə ailə dəyərlərinin zəifləməsi, ömür uzunluğunun artması və yaşlı nəslin gündəlik həyatdakı rolu - bütün bunlar bizə bir daha məsuliyyətimizi xatırladır. Bu fərqindəliklə yaşasaq, ailədaxili münaqişələrin qarşısını almaq mümkündür. Həm gəlinlərin, həm də oğulların öz uşaqlıqlarını xatırlaması, keçmişdə valideynlərindən gördükləri qayğını xatırlayaraq onları anlamağa çalışması bu mərhələdə çox vacibdir. Empatiya bəzən tək bir xatirədən doğur, tək bir duyğudan başlayır.

Bir gəlin danışır və deyir: ”Uşaqlığım yadıma düşdü. Anamın sevdiyi konfetdən aldım, çay içdik bir yerdə. Əvvəlcə utanırdım, danışmağa çəkinirdim, amma sonra o qədər rahatladım ki ” Bu, çox gözəl bir məqamdır. Çünki insan dinlədikcə, başqasının duyğusuna bələd olduqca özünü də kənardan görməyə başlayır. Psixoloqa müraciət etmək insanın öz ”mən”i ilə üz-üzə gəlməsi deməkdir. Bu isə həm daxili güc, həm də tərbiyə məsələsidir. Çünki hər kəs özü ilə bu qədər dürüst ola bilmir. Lakin nəticədə insan qarşısındakı yaşlının dəyərini anlayır, ona açıq qəlblə yanaşır, qıcağını və könlünü ona açır.

Bu cür empatiya, müşahidə və anlayış bir ailədəki münasibətlərin təkcə səthi deyil, dərin qatlarını da dəyişdirə bilir. Unutmayaq ki, yaşlıların varlığı sadəcə keçmişin izi deyil, eyni zamanda gələcəyin güzgüsüdür. Onlara göstərdiyimiz münasibət, əslində, özümüzə necə yanaşdığımızın göstəricisidir”.

***Ziya Hikmətoğlu***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**


**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**


“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR


**Tel: 598-33-90**
**Faks: 493-11-62**


Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**